

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

**100 ilin qəzeti**

# ŞƏRQ QAPISI

Sayı: 21 (24.507)

*6 iyun 2026-cı il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*





# "Bakı Enerji Həftəsi":

## *Azərbaycanın qlobal enerji gündəliyinə strateji töhfəsi*

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında 13 iri neft şirkəti arasında Bakıda "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizin dünya miqyasında siyasi və iqtisadi müstəqillik yolunda mühüm mərhələyə qədəm qoymasına zəmin yaratdı. Bu strateji razılaşma Azərbaycanın enerji sektorunun inkişafında yeni dövr açdı və ölkənin beynəlxalq enerji bazarına inteqrasiyasını sürətləndirdi. Nəticədə, Azərbaycan bu gün təkcə ənənəvi neft və qaz sahəsində deyil, həm də bərpa olunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji" istehsalı və ixracı istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirir, bu sahədə etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirir. Bu kontekstdə əsası müstəqil Azərbaycanın ixtisaslaşmış sərgisi olan Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ilə qoyulan və hər il keçirilən "Bakı Enerji Həftəsi" ölkəmizin enerji strategiyasında yeni perspektivlərin formalaşması və genişmiqyaslı əməkdaşlıqların qurulması baxımından mühüm platformaya çevrilib. Zamanla Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin bazasında formalaşan bu tədbir daha geniş məzmun, daha böyük iştirakçı coğrafiyası və artan strateji əhəmiyyət qazanıb. Hazırda o təkcə sərgi formatı deyil, eyni zamanda qlobal enerji siyasətinin müzakirə olunduğu yüksək səviyyəli dialoq platforması kimi çıxış edir.

İyunun 1-də Bakı Ekspo Mərkəzində işə başlayan "Bakı Enerji Həftəsi" enerji sektorunda fəaliyyət göstərən nüfuzlu beynəlxalq və yerli şirkətləri, dövlət rəsmilərini və ekspertləri bir araya gətirərək qlobal enerji gündəliyində aktual məsələlərin müzakirəsi üçün geniş imkanlar yaradır. Builki tədbir yeni iştirakçılar və milli pavilyonlar da daxil olmaqla, 46 ölkədən 270-dən çox şirkəti əhatə edir ki, bu da Azərbaycanın enerji sektoruna artan beynəlxalq marağı və ölkənin uzunmüddətli strateji potensialına olan inamı aydın şəkildə göstərir. Prezident İlham Əliyev həftə çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxış edərək ölkəmizin enerji gündəliyinin prioritet istiqamətlərini, qlobal enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın artan rolunu və beynəlxalq əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb. Dövlət başçısı, həmçinin ənənəvi enerji resursları ilə yanaşı, bərpa olunan enerji mənbələrinin inkişafının strateji əhəmiyyət daşıdığını qeyd edərək Azərbaycanın bu sahədə həyata keçirdiyi layihələrin region və dünya üçün mühüm töhfə olduğunu bildirib.

Səhifə ⇨ 3

# Azərbaycan dilinin qorunması:

## *siyasi iradə, milli birlik və media həmrəyliyi*



Səhifə ⇨ 4

# Ən böyük memar – Heydər Əliyev

## Vətənin hər qarışında Ulu Öndərin imzası var

*1939-cu ilin isti yay günlərindən birində qədim Naxçıvanın özü qədər ulu olan tarixi məhəlləsində böyüyən gənc bir naxçıvanlı öz xəyallarını gerçəkləşdirmək üçün Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Memarlıq fakültəsinə daxil oldu. İkinci Dünya müharibəsinin başlanması təhsilini başa çatdırmağa imkan verməsə də, Tanrı Ona böyük bir xalqın əbədi dövlətinin təməlini atmağı, memarı olmağı qismət etdi. Bugünkü güclü, qalib, dünya xalqları arasında imzası olan Azərbaycan dövlətinin ən böyük memarı olmaq şərəfinə Heydər Əliyev nail oldu.*

*1969-cu ildən başlanan bu yol çətin, keşməkeşli dar cığırlardan keçərək bizi bötöv və suveren Azərbaycana gətirdi. Bəli, O bu xalqın ən böyük memarıdır. Bu gün bu Vətənin hər qarışında Ulu Öndərin alın tərinin, qabarlı əllərinin izi var. Gənc yaşlarından memarlıq sənətinə vurğun olan, həyatını bu sənətə, bu fəaliyyətə həsr etmək arzusu ilə yaşamış Heydər Əliyev həyatın çətin qaydaları ilə mübarizə aparsa da, memarlığa olan məhəbbətini son anına qədər qəlbində yaşadıb.*

*60-cı illərin sonunda hakimiyyətə gələndə ondan istənilən, sovet ideologiyasının əsas məqsədlərindən olan milli xüsusiyyətlərin silinməsi tələbini həyata keçirməsi idi. Bu təkcə memarlıqda yox, bütün sahələrdə qarşıya qoyulan tələb idi. Məqsəd isə SSRİ-də yaşayan çoxsaylı millətləri birləşdirmək, simasızlaşdırmaq idi. Onun isə ilk addımları milli dəyərlərimizi öyrənmək, müasir fəaliyyətdə onlara istinad edərək Azərbaycanın tarixi mədəniyyətini dünyaya tanıtmaq oldu. Bu isə sovet dövlətinin bütün ideyalarına və tələblərinə qarşı çıxmaq, onların tələblərinə zidd hərəkət idi. O heç nədən və heç kimdən qorxub çəkinməyərək memarların qarşısında Azərbaycan memarlığının müasir tələblərə cavab verməsini, lakin bununla bərabər, milli xüsusiyyətlərin əks etdirilməsini tələb kimi qoymuşdu.*



Mərkəzi hakimiyyətin Heydər Əliyevin bu yanaşmasına yaxşı münasibət göstərməməsi, gənc siyasətçiyə təzyiqlər etməsi Onun cəsarətini, millətinə bağlılığını sındıra bilmirdi. Bu gün tam əminliklə deyirik ki, milli irsimizin qorunub saxlanılması, müasir memarlıq incilərinin əsasının qoyulması dövlət siyasəti olaraq məhz Heydər Əliyevin dövründə başlandı.

Həmin illərdə yaşayıb-yaradan memarlar qeyd edirlər ki, O, tikililərin layihələndirilməsində, necə deyərlər, süjet xəttini özü verir və hətta memarlarımız tərəfindən layihələr işləndikcə mütəmadi olaraq müzakirələr aparırdı. Yəni demək olar ki, layihələri özü memarlarımızla birgə işləyirdi. Bu, dünya tarixində müşahidə olunmamış bir hadisədir. Məhz bunun nəticəsində həmin dövrlərdə müasir şəhərsalma prinsiplərinə və xalq təsərrüfatının tələbinə uyğun olaraq şəhərlərimizin yeni Baş planları işləndi, yaşayış məntəqələrinin siması köklü şəkildə dəyişdi. Əgər həmin dövrə qədər Azərbaycanda cəmi 37 şəhərin Baş planı vardısa, 70-80-ci illərdə 60 şəhərin və bir sıra şəhərtipli qəsəbələrin Baş planları işlənildi. Bir-birindən gözəl, milli üslubda ucaldılan tikililər əsri Ulu Öndərin imzası ilə başlandı.

**Prezident İlham ƏLİYEV:**

*“Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir”.*

Ümummilli Lider tikililərin layihələndirilməsi ilə yanaşı, onların yerini də özü seçir, ətraf mühitlə harmoniyanı nəzərə alırdı. Müasir memarlıq üslubunda inşa olunan obyektlərin salınmasında Ulu Öndərin ən çox diqqət yetirdiyi məqam həmin tikilinin ətrafında yaradılacaq yaşıllıq sahəsi olurdu.

Mənzil tikintisinin genişlənməsi şəhər ərazilərinin abadlaşdırılması, sosial və mədəniyyət obyektləri şəbəkəsinin inkişafı da məhz Ulu Öndərin idarəçiliyi dövrünə təsadüf edir. Naxçıvandakı Yeni Naxçıvan massivi, Sumqayıtdakı 13-cü, 17-ci mikrorayonlar memarlıq və kompozisiya həllinə görə Ulu Öndərin birinci siyasi hakimiyyət dövrünün ən uğurlu yaşayış məkanları hesab edilir.

Dahi şəxsiyyət Heydər Əliyev, həmçinin ölkəmizdə hakimiyyətdə olduğu ilk dövrlərdən tarixi abidələrimizin qorunmasında və bu günümüzə gəlib çatmasında müstəsna xidmətlər göstərmişdir. Qədim Qəbələ – 9 əsr Qafqaz Albaniyasının paytaxtı olmuş tarixi-arxeoloji məkan – sovet dövründə hərbi obyekt üçün yer seçiləndə sovet generalları Heydər Əliyevin sərt etirazı ilə qarşılaşır. Çətin mübarizədən sonra Onun cəsarəti ilə Qədim Qəbələ məhv olmaqdan xilas olur.

Məscidlərimizin, dini ziyarətgahlarımızın qorunması da məhz bu dövrə təsadüf edir. Sovet ideologiyasına əsasən İslam dini abidələrinə mənfi münasibət bəslənməsinə baxmayaraq, Heydər Əliyev sərgilədiyi böyük vətənpərvərlik və cəsarət nümunəsi ilə belə ziyarətgahların qorunub saxlanması məsələlərini önə çəkir, müxtəlif yollarla həmin abidələri qoruyurdu. Həmin dövrdə məscidlərin və dini ziyarətgahların sovxoz və kolxozlar üçün taxıl anbarlarına çevrilməsinin səbəbini biz müstəqillik qazananda dərk etdik. Bir daha Onun dərin və uzaqgörən zəkasına heyran qaldıq.

1981-ci ildə “Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeologiya abidələrinin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında” Qərarın qəbul edilməsi də abidələrimizin tədqiqi və mühafizəsi üçün böyük əhəmiyyət kəsb edib. Məhz həmin qərarla müqəddəs dini tarixi-abidələrimizin, eyni zamanda Naxçıvanda Qarabağlar türbəsinin təmir-bərpa işləri reallaşıb.

Müasir Azərbaycanın memarı ən möhtəşəm əsərini isə 1993-cü ildə ikinci dəfə müstəqil dövlətdə siyasi hakimiyyətə qayıdandan sonra yaratdı. Dahi şəxsiyyət yenidən milli-mənəvi dəyərləri dirçəltdi, bütün sahələr kimi, memarlığı da layiq olduğu səviyyəyə qaldırdı. Qarşısına çıxan iqtisadi çətinliklərə, müharibə şəraitinin gətirdiyi xoşagəlməz hallara baxmayaraq, Azərbaycanda yenidən quruculuq işləri geniş vüsət aldı. Memarların qarşısında yeni üfüqlər açıldı və onların yaradıcılıq sahəsi özünün yeni intibah dövrünü yaşadı. Azərbaycanda milli memarlığa Ulu Öndərin qayğı ənənəsini Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev layiqincə davam etdirir. Son beş ildir ki, dahi rəhbərin Şuşada, Laçında xəyalını qurduğu, layihəsini işlədiyi planlar yerinə yetirilir.

Zəfərin ardınca otuz il ərzində viran qoyulan ərazilərimizdə innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri başladı. Son beş ildə Qarabağda böyükhəcmli infrastruktur layihələri həyata keçirilir. Yollar, hava limanları, məktəblər, elektrik stansiyaları, xəstəxanalar, yaşayış binaları, mədəniyyət və təhsil obyektləri, turizm məkanları tikilir, saymaqla bitməyən işlər görülür. Bərpa olunan məscidlərdən azan səsi yüksəlir. Tarixi abidələrin bərpa olunmuş görkəmi göz oxşayır. Öz çıxışlarında bütün bunların sadalanmaqla bitməyəcəyini deyən dövlət başçısı bildirib ki, Qarabağın dirçəldilməsi ən mühüm vəzifələrdən biridir ki, bu sahədə mühüm işlər görülür. Bu isə Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. Və Azərbaycanın memarının bu Vətən üçün arzularını gerçəyə çevirir.

**Ramiyə ƏKBƏROVA**

# "Bakı Enerji Həftəsi":

## Azərbaycanın qlobal enerji gündəliyinə strateji töhfəsi




(əvvəli 1-ci səhifədə)

Həftə çərçivəsində Prezident İlham Əliyevin iştirakı ilə "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan ilk sərbəst təbii qaz hasilatına başlanması mərasimi keçirildi ki, bu da Azərbaycanın enerji sektorunda yeni mərhələnin başlanğıcı və ölkənin qaz potensialının gücləndirilməsi baxımından mühüm hadisə kimi qiymətləndirilir. Eyni zamanda SOCAR ilə bir sıra beynəlxalq şirkətlər arasında əməkdaşlığı genişləndirən sənədlər də imzalandı. Bu addım enerji sahəsində tərəfdaşlığın daha da dərinləşməsinə xidmət edir.

### "Əsrin müqaviləsi"ndən Cənub Qaz Dəhlizinə: Azərbaycanın uğurlu enerji yolu

Məlum olduğu kimi, Azərbaycanın müasir enerji inkişafı 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə yeni mərhələyə qədəm qoyub. Həmin dövrdə ölkə ciddi iqtisadi çətinliklər, siyasi qeyri-sabitlik, enerji çatışmazlığı və sosial problemlərlə üzləşmişdi. Elektrik və qaz idxalı, yüksək yoxsulluq səviyyəsi və məhdud investisiya imkanları fonunda təbii sərvətlərin beynəlxalq əməkdaşlıq çərçivəsində işlənməsi strateji çıxış yolu kimi müəyyən edilib. Bu qərar sonrakı onilliklərdə ölkənin iqtisadi modelini əsaslı şəkildə dəyişdirib. 1996-cı ilin iyun ayında imzalanan və 30 ili tamamlanan "Şahdəniz" qaz yatağı üzrə müqavilə Azərbaycanın qaz sənayesində yeni dövr açıb və ölkəni iri qaz ixracatçısına çevirib. Bununla paralel olaraq Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərləri və daha sonra Cənub Qaz Dəhlizi kimi layihələr regionun enerji xəritəsini dəyişdirib. Bu infrastruktur layihələri Azərbaycanı Xəzər regionu ilə Avropa bazarları arasında əsas enerji körpüsünə çevirib və enerji təhlükəsizliyində onun rolunu əhəmiyyətli dərəcədə artırıb. Respublikamız hazırda 16 ölkəyə mavi yanacaq nəqli həyata keçirir ki, onlardan 10-u Avropa İttifaqının üzvüdür. Təsadüfi deyil ki, Aİ tamamilə haqlı olaraq Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. 2007-ci ilin əvvəlindən etibarən 2026-cı ilin birinci rübünün sonunadək Cənub Qaz Dəhlizi vasitəsilə 196,5 milyard kubmetr "mavi yanacaq" ixrac olunub. Bunun da 58 milyard kubmetri Avropa bazarlarına çatdırılıb. Hazırda təbii qaza ciddi ehtiyac duyulduğunu nəzərə alsaq, Azərbaycandan "mavi yanacaq" alan Avropa ölkələrinin sayının daha da artacağı gözlənilir.

Təkcə sonuncu "Bakı Enerji Həftəsi"ndən ötən bir il ərzində 4 yeni ölkənin respublikamızın müəllifi olduğu bu meqalayihəyə qoşulması Azərbaycanın etibarlı enerji tərəfdaşı kimi mövqeyinin daha da möhkəmləndiyini və Avropanın enerji təhlükəsizliyində rolunun getdikcə artdığını göstərir. Prezident İlham Əliyev 31-ci "Bakı Enerji Həftəsi"nin açılışı mərasimində çıxışı zamanı bu məsələyə xüsusi toxunaraq ixracat coğrafiyasının daha da genişlənəcəyinin mesajını verdi: ***"Bu gün Avropa enerji bazarının Cənub Qaz Dəhlizi olmadan necə olacağını təsəvvür etmək çətindir. Qeyd etdiyim kimi, biz sayı artmaqda olan ölkələri qazla təchiz edirik. Keçən il burada – "Bakı Enerji Həftəsi"ndə mən auditoriyaya məlumat verdim ki, Azərbaycan qazını 12 ölkə alır. Bu gün onların sayı 16-dır və onlardan 10-u Avropa İttifaqına üzv olan ölkələrdir. Bu ölkələrin sayı, əlbəttə ki, artacaqdır. Boru xətti ilə qazın müxtəlif ölkələrə nəql edilməsi, ərazi və coğrafiya kimi parametrlərə baxsanız görərsiniz ki, biz dünyada birinciyik. Biz qaz təchizatımızı artıracağıq".***

### Enerji siyasətində yeni mərhələ: iqtisadi gücdən yaşıl potensiala

Enerji sektorunun inkişafı ötən müddətdə ölkəmizin iqtisadi modelində fundamental dəyişikliklərə səbəb olub. Neft və qaz gəlirlərinin mərkəzləşdirilmiş şəkildə idarə olunması məqsədilə Dövlət Neft Fondunun yaradılması nəticəsində bu vəsaitlər sosial-iqtisadi inkişaf layihələrinə yönəldilib. Nəticədə, genişmiqyaslı infrastruktur quruculuğu həyata keçirilib, yollar, məktəblər, xəstəxanalar və enerji infrastrukturu yenilənib. Eyni zamanda yoxsulluq səviyyəsinin azalması, işsizliyin aradan qaldırılması və maliyyə sabitliyinin gücləndirilməsi müşahidə olunub. Xarici borcun idarə olunması daha sistemli xarakter alıb və valyuta ehtiyatları əhəmiyyətli dərəcədə artıb. Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin rəsmi açılış mərasimində çıxışı zamanı bu məqamları təhlil edərək Azərbaycanın mühüm iqtisadi nailiyyətlərindən biri kimi xarici borcun dünya üzrə ən aşağı səviyyələrdə olduğunu vurğulayıb. Sitat: ***"Bu gün Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır. Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də, təqribən, eyni rəqəm səviyyəsindədir. Biz xarici borcumuzu əhəmiyyətli dərəcədə azalda bildik. Başlanğıcda biz borc götürmək məcburiyyətində idik, lakin sonra strategiyamız borc götürməyi dayandırmaq və borcları ödəmək oldu ki, biz istənilən beynəlxalq maliyyə institutundan asılı olmayaq. Bu gün bizim xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən, ümumi daxili məhsulun 6 faizindən çoxdur".***

Dövlət başçısının çıxışlarında da dəfələrlə qeyd etdiyi kimi, bu gün Azərbaycanın enerji siyasətində əsas prioritetlərdən biri bərpa olunan enerji mənbələrinin inkişafıdır. Qarşıdakı illərdə günəş və külək enerjisi üzrə istehsal gücünün əhəmiyyətli dərəcədə artırılması nəzərdə tutulur. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzurda yaradılan yeni hidroenerji obyektləri ölkənin enerji potensialının genişlənməsinə mühüm töhfə verir. Artıq bir sıra layihələr istismar mərhələsinə daxil olub. Gələn ilin sonunadək günəş və külək enerjisi üzrə ümumi gücün 2 giqavata çatdırılması, 2032-ci ilin sonunadək isə 8 giqavata yüksəldilməsi planlaşdırılır. Eyni zamanda Qarabağ və Şərqi Zəngəzurda 300 meqavatdan artıq hidroenerji gücünün istifadəyə verilməsi ölkənin enerji balansına əlavə imkanlar qazandırır. Bu potensial gələcəkdə neft və qaz ixracını tamamlayan mühüm enerji mənbələrindən birinə çevriləcək. Bununla yanaşı, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən beynəlxalq enerji layihələri regionun enerji xəritəsinin yenidən formalaşmasında mühüm rol oynayır. "Qara dəniz Enerji Kabeli" və Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan marşrutu üzrə quruda reallaşdırılacaq elektrik kabeli layihələri ölkəmizin Avropa ilə enerji əməkdaşlığını daha da gücləndirəcək. Həmin layihələr enerji ixracının şaxələndirilməsinə, regional inteqrasiyanın dərinləşməsinə və Azərbaycanın beynəlxalq enerji bazarındakı strateji mövqeyinin möhkəmlənməsinə xidmət edəcək.

Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycanın enerji siyasətində nəqliyyat və logistika infrastrukturunun inkişafı da xüsusi əhəmiyyət daşıyır. Son illərdə Bakı-Tbilisi-Qars dəmir yolu, eləcə də Şərq-Qərb və Şimal-Cənub Nəqliyyat dəhlizlərinin inkişafı ölkənin tranzit imkanlarını əhəmiyyətli dərəcədə genişləndirərək onun qlobal ticarət sistemində mövqeyini daha da gücləndirib. Eyni zamanda Orta Dəhlizin potensialını ciddi şəkildə artıracaq Zəngəzur dəhlizinin reallaşdırılması regionlararası iqtisadi əlaqələrin genişlənməsinə, yükdaşımaların daha səmərəli təşkilinə və logistika axınlarının optimallaşdırılmasına mühüm töhfə verəcək. Bu proseslər bütövlükdə Azərbaycanın geosiyasi əhəmiyyətini daha da yüksəldir. Beləliklə, ölkə enerji resurslarından yalnız iqtisadi inkişaf amili kimi deyil, həm də beynəlxalq əməkdaşlığın genişləndirilməsi və regional sabitliyin möhkəmləndirilməsi baxımından strateji mexanizm kimi istifadə edir. Qonşu dövlətlərlə və daha geniş coğrafiyada formalaşan enerji tərəfdaşlığı isə regional inteqrasiyanı dərinləşdirir, qarşılıqlı etimadı gücləndirir və əməkdaşlıq üçün dayanıqlı zəmin yaradır.

Çoxsaylı iştirakçıların bir araya gəldiyi və qlobal enerji gündəliyinin əsas müzakirə mövzularının formalaşdığı "Bakı Enerji Həftəsi" Azərbaycanın enerji siyasətində əldə etdiyi nailiyyətləri nümayiş etdirən, eyni zamanda gələcək inkişaf prioritetlərinin müəyyənləşdirildiyi mühüm beynəlxalq platformadır. Bu tədbir ölkəmizin qlobal enerji təhlükəsizliyinin təmin olunmasında oynadığı strateji rolu, etibarlı tərəfdaş kimi formalaşan nüfuzunu və enerji sahəsində genişlənən əməkdaşlıq imkanlarını bir daha ortaya qoyur. Neft və qaz sektorunda əldə edilən uğurların bərpa olunan enerji layihələri ilə tamamlanması, nəqliyyat və logistika infrastrukturunun inkişafı, eləcə də yeni regional təşəbbüslərin həyata keçirilməsi Azərbaycanın dayanıqlı inkişaf strategiyasının əsas istiqamətlərini təşkil edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl enerji siyasəti ölkənin iqtisadi qüdrətinin artmasına, beynəlxalq mövqelərinin möhkəmlənməsinə və regionun enerji xəritəsində aparıcı rolunun daha da güclənməsinə xidmət edir. Bu baxımdan, "Bakı Enerji Həftəsi" təkcə enerji sahəsində əməkdaşlıq platforması deyil, həm də Azərbaycanın gələcəyə yönəlmiş inkişaf modelinin və strateji baxışının ifadəsidir.

Nail ƏSGƏROV

# Azərbaycan dilinin qorunması:

## siyasi iradə, milli birlik və media həmrəyliyi

***Milli kimliyimizin əsas daşıyıcısı sayılan Azərbaycan dilinin dövlət dili kimi qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə saf şəkildə ötürülməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində ana dilimiz yalnız milli-mənəvi dəyər kimi deyil, həm də dövlətçilik atributu kimi möhkəmlənib. Ümumiyyətlə, görkəmli dövlət xadiminin Azərbaycan dilinə münasibəti hər zaman xüsusi həssaslıq və yüksək məsuliyyəti ilə seçilib. O, dili xalqın milli kimliyinin, tarixi yaddaşının və mədəni irsinin əsas sütunlarından biri kimi dəyərləndirib. Sovet dövründə milli dillərin sıxışdırıldığı bir şəraitdə Azərbaycan dilinin hüquqi statusunun qorunması və gücləndirilməsi istiqamətində atdığı addımlar bu gün və gələcək üçün xüsusi əhəmiyyət daşıyır.***



1978-ci ildə məhz dahi şəxsiyyət Heydər Əliyevin prinsipial mövqeyi və siyasi iradəsi sayəsində Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması tarixi nailiyyət idi. Bu qərar həmin dövrdə milli özünüdərkin və ana dilinə bağlılığın qorunması baxımından mühüm dönüş nöqtəsi sayılır. ***"Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir"*** ideyasının müəllifi olan Ulu Öndər müstəqillik illərində də Azərbaycan dilinin inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Onun təşəbbüsü ilə Azərbaycan dilinin tətbiqi və qorunması ilə bağlı bir sıra mühüm sənədlər qəbul olundu, müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili kimi təsbit edildi. 2001-ci ildə imzalanan "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli Fərman ana dilimizin ictimai-siyasi, elmi və mədəni həyatın bütün sahələrində daha geniş və düzgün istifadəsinə xidmət etdi. Bununla yanaşı, Ümummilli Liderin "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanı ilə hər il avqustun 1-i "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" kimi qeyd olunmağa başlandı. Bu qərar dilimizin inkişafına və cəmiyyətin ana dilinə diqqətinin artırılmasına mühüm töhfələr verdi.

Ümummilli Lider Heydər Əliyev ayrı-ayrı ölkələrə tarixi səfərlərində, rəsmi görüşləri və ictimaiyyət nümayəndələri ilə etdiyi çıxışlarda hər zaman Azərbaycan dilində səlis, zəngin və nümunəvi nitqi ilə də örnək olub. Onun nitqləri dilimizin ifadə imkanlarını, zəngin söz ehtiyatını və estetik gücünü nümayiş etdirən dəyərli nümunələrdir. Bu gün Azərbaycan dilinin qorunması və inkişafı istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təməlində də məhz Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kurs, zəngin konsepsiya dayanır.

### Mediada ana dili siyasəti: strateji yanaşma və ictimai məsuliyyət

Müasir dövrdə qloballaşma proseslərinin sürətlənməsi, informasiya texnologiyalarının geniş yayılması və media məkanının sürətli transformasiyası milli dillərin qorunması məsələsini dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirib. Bütün bu proseslərin fonunda Azərbaycanda da ana dilinin saflığının qorunması, dövlət dili kimi nüfuzunun artırılması və ictimai həyatın bütün sahələrində düzgün istifadəsinin təmin olunması diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə Ümummilli Lider Heydər Əliyevin layiqli siyasi varisi Prezident İlham Əliyevin prinsipial mövqeyi və həyata keçirdiyi məqsədyönlü siyasət xüsusi əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, ana dilinin qorunması yalnız mədəni məsələ deyil, həm də dövlətçilik məsələsidir, dilin saflığının qorunması milli birliyin möhkəmləndirilməsi, milli şüurun inkişafı və gələcək nəsillərə sağlam mənəvi irsin ötürülməsi baxımından həyati əhəmiyyət daşıyır. Məhz bu yanaşmanın nəticəsidir ki, Azərbaycan dilinin dövlət dili kimi mövqeyinin gücləndirilməsi istiqamətində son illərdə mühüm addımlar atılıb. Ölkə başçısının "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli Fərmanı bu sahədə geniş konsepsiya formalaşdıraraq mühüm yol xəritəsi müəyyənləşdirib. Dövlət idarəçiliyində, təhsil sistemində, mediada və elektron informasiya resurslarında Azərbaycan dilinin düzgün tətbiqi ilə bağlı hüquqi və institusional mexanizmlər təkmilləşdirilib. Reallaşdırılan tədbirlər çərçivəsində dil normalarının qorunması, yad və lüzumsuz xarici sözlərin istifadəsinin qarşısının alınması, ədəbi dil qaydalarına riayət olunmasının təşviqi xüsusilə ön plana çıxarılıb. Bu xüsusda Qarabağın işğaldan azad olunmasından sonra həyata keçirilən yenidənqurma prosesləri çərçivəsində toponimlərin bərpası məsələsi də xüsusi əhəmiyyət kəsb edir. Həmçinin sovet dövründən və işğal illərindən qalmış yad ünsürlü, milli kimliyə uyğun olmayan yer adlarının Azərbaycan dilinin norma və tarixi yaddaşına uyğun şəkildə dəyişdirilməsi həm dil siyasətinin, həm də milli kimliyin möhkəmləndirilməsi baxımından mühüm addım kimi dəyərləndirilir. Bu proses yalnız inzibati dəyişiklik deyil, eyni zamanda milli-mənəvi dəyərlərin bərpası və tarixi ədalətin dil müstəvisində ifadəsi kimi özünü göstərir.

Azərbaycan dilinin saflığının qorunması və gələcək nəsillərə etibarlı şəkildə ötürülməsi kontekstində medianın üzərinə düşən məsuliyyət daha da artır. Çünki media yalnız informasiya vasitəsi deyil, eyni zamanda cəmiyyətdə dil mədəniyyətini formalaşdıran və ictimai nitqə təsir edən əsas institutlardan biridir. Bu mənada, televiziya, radio, xəbər portalları və sosial media platformalarında istifadə olunan dil geniş auditoriya üçün nümunə rolunu oynayır. Buna görə də mediada ana dilinin normativ, səlis və məsuliyyətli istifadəsi yalnız peşə etikası deyil, həm də milli məsuliyyət məsələsidir. Prezident İlham Əliyev ötən il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqda və bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində də Azərbaycan dilinin qorunması istiqamətində mühüm tezislər irəli sürərək vacib vəzifələri diqqətə çatdırdı. Dövlət başçısının media nümayəndələrinə xitabən səsləndirdiyi ***"...burada jurnalistlərdən çox şey asılıdır. Çünki necə deyərlər, efir məkanında ən çox danışan jurnalistlərdir və onlardan da xahiş edirəm, xarici kəlmələrdən istifadə etməsinlər. Mən hərdənbir eşidirəm televiziya verilişlərində..."*** fikirlər bu gün hər bir media mənsubu üçün düzgün yön aşılayır.

Prezident İlham Əliyevin Azərbaycan dilinin saflığının qorunması və media məkanında düzgün istifadəsi ilə bağlı prinsipial mövqeyinə əsaslanan bu yanaşma media qurumlarını ana dilimizin keşiyində daha həssas və məsuliyyətli olmağa çağırır. Bu çağırış həm də medianın ana dilinin qorunmasında nə qədər strateji rol oynadığını bir daha təsdiqləyir. Jurnalistlərin, televiziya, radio aparıcılarının və ümumilikdə, media nümayəndələrinin nitqində dil normalarına riayət olunması, alınma sözlərdən istifadədən maksimum çəkinilməsi, Azərbaycan dilinin zəngin ifadə imkanlarının ön plana çıxarılması milli-mənəvi dəyərlərimizin yaşadılmasına xidmət edir. Nəzərə alsaq ki, xüsusilə hazırkı rəqəmsal media dövründə informasiyanın sürətlə yayıldığı bir şəraitdə dil səhvləri və yad təsirlər də eyni sürətlə cəmiyyətə nüfuz edə bilir. Bu səbəbdən media qurumlarının redaksiya siyasətində dil məsələsinə xüsusi həssaslıq göstərilməsi, jurnalistlərin dil mədəniyyəti ilə bağlı davamlı maarifləndirilməsi olduqca vacibdir.

### Naxçıvanda ana dilinin təbliği üçün media həmrəyliyi – "Sözün gücü"

Azərbaycan dilinin saflığının qorunması, yad təsirlərdən uzaq tutulmasına dair Prezident İlham Əliyevin media nümayəndələri qarşısında qoyduğu vəzifələrin icrası baxımından Naxçıvan televiziyası və "Şərq qapısı" qəzetinin birgə hazırladığı "Sözün gücü" layihəsinin də rolu mühümdür. Layihə dövlət başçısının Azərbaycan dilinin qorunması, inkişafı və gənc nəslə sevdirilməsi istiqamətində müəyyən etdiyi prioritetlərlə birbaşa səsləşir. Bu çərçivədə həm Naxçıvan televiziyasının efirində maarifləndirici çıxışlar edildi, həm də "Şərq qapısı" qəzetində məqalələr, müsahibələr dərc olundu. Əsas məqsəd Azərbaycan dilinin praktik istifadəsini gücləndirmək, iştirakçıların nitq mədəniyyətini inkişaf etdirmək və ictimai çıxış bacarıqlarını artırmaq, həmçinin media həmrəyliyi əsasında ana dilimizin qorunması istiqamətində vahid mövqe formalaşdırmaq olub. Bununla mediada ədəbi dil normalarının qorunmasına, efir nitqində səlisliyin təmin edilməsinə diqqət çəkmək hədəf götürülüb.

Təşəbbüs media qurumlarının ana dilinin qorunması istiqamətində ictimai məsuliyyətini ön plana çıxarmaqla Azərbaycan dilinin yad təsirlərdən qorunmasına və cəmiyyətdə dil mədəniyyətinin möhkəmlənməsinə xidmət edib. Layihə çərçivəsində Azərbaycan dilinin düzgün, səlis və təsirli istifadəsinin təşviqi məqsədilə təşkil olunan 1 aylıq maarifləndirici və tədris yönümlü marafon çərçivəsində Naxçıvan Muxtar Respublikasının müxtəlif şəhər və rayonlarında təlimlər, seminarlar, praktik məşğələlər və ictimai çıxış sessiyaları keçirilib. Marafonun məhz Azərbaycan dilinin qorunub yaşadılması uğrunda misilsiz tarixi xidmətlər göstərən Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 103-cü ildönümündə – mayın 10-da başlaması xüsusi rəmzi məna kəsb edir. Çünki məhz dahi şəxsiyyətin uzaqgörən siyasəti nəticəsində Azərbaycan dili dövlətçiliyimizin əsas sütunlarından biri kimi qorunub inkişaf etdirilib.

### Strateji xətt, ictimai həssaslıq

Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi yalnız dövlət siyasətinin prioritet istiqamətlərindən biri deyil, həm də hər bir vətəndaşın milli-mənəvi borcudur. Qloballaşmanın, informasiya axınının və xarici təsirlərin sürətlə artdığı müasir dövrdə ana dilimizin saflığını qorumaq, onun zəngin ifadə imkanlarını yaşatmaq və gələcək nəsillərə olduğu kimi ötürmək xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə dövlətin müəyyən etdiyi strateji xətt, medianın məsuliyyətli mövqeyi və cəmiyyətin ümumi həssaslığı bir-birini tamamlayan əsas amillərdir.

Azərbaycan dili təkcə ünsiyyət vasitəsi deyil, xalqımızın tarixi yaddaşı, milli kimliyi və mənəvi kamilliyinin ifadəsidir. Dilimizi qorumaq isə milli irsimizi, dövlətçilik dəyərlərimizi və mədəni yaddaşımızı qorumağa xidmətdir. Bu baxımdan, hər bir şəxsin, xüsusilə də ictimai fikrin formalaşmasında mühüm rol oynayan media nümayəndələrinin ana dilinə həssas yanaşması böyük önəm daşıyır.

Əminliklə demək olar ki, dövlətin siyasi iradəsi, medianın həmrəyliyi və cəmiyyətin ortaq məsuliyyəti ilə Azərbaycan dili öz saflığını, zənginliyini və nüfuzunu daim qoruyaraq yaşayacaq.

**Nail ƏSGƏROV**

## Heydər Əliyev su anbarında su ehtiyatı maksimum həddə çatıb

Naxçıvan Muxtar Respublikasının içməli və suvarma su təminatında mühüm rol oynayan Heydər Əliyev su anbarında su ehtiyatı son illərin ən yüksək səviyyəsinə çatıb. Ümumi həcmi 100 milyon kubmetr olan strateji əhəmiyyətli su anbarında hazırda faydalı su həcmi tam doldurularaq 94 milyon 20 min kubmetrə çatıb. Müqayisə üçün qeyd edək ki, ötən ilin eyni dövründə anbarda cəmi 40 milyon kubmetr su ehtiyatı mövcud idi. Beləliklə, bir il ərzində su anbarındakı ehtiyat iki dəfədən çox artıb. Bu artımın əsas səbəbi cari ilin qış və yaz aylarında müşahidə olunan bol yağıntılar, dağlıq ərazilərdə formalaşan zəngin qar ehtiyatları və çaylarda su sərfinin yüksəlməsidir. Xüsusilə qış aylarında yağan qar və yaz mövsümündə qeydə alınan intensiv yağışlar su ehtiyatlarının bərpasına mühüm təsir göstərib. Hazırda muxtar respublikanın bütün su anbarlarında toplanan ümumi su ehtiyatı 293 milyon 740 min kubmetr təşkil edir. Ötən ilin müvafiq dövründə isə bu göstərici 192 milyon 936 min kubmetr olmuşdu. Bu da su ehtiyatlarında 100 milyon kubmetrdən artıq artımın qeydə alındığını göstərir.



Heydər Əliyev su anbarı vasitəsilə Naxçıvan və Babək şəhərlərinin, eləcə də bir sıra ətraf kəndlərin içməli suya olan tələbatı ödənilir. Bununla yanaşı, 10 min hektardan artıq əkin sahəsi də məhz bu mənbədən suvarma suyu ilə təmin olunur. Hazırda anbarın maksimuma yaxın doluluq səviyyəsində olması həm əhalinin içməli su təminatının davamlılığı, həm də kənd təsərrüfatı sahələrinin suvarılması baxımından əlverişli şərait yaradır. Bu vəziyyət cari mövsümdə su təminatının daha sabit və etibarlı şəkildə həyata keçirilməsinə imkan verir.

## Ali Məclisin mətbuat xidmətinin məlumatı




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyası dövründə 10 plenar, 19 komitə, 4 komissiya iclası keçirilib. 9 qanun və 11 qərar olmaqla, ümumilikdə, 20 hüquqi akt qəbul olunub.

## Naxçıvanda yeni tikiş fabriki fəaliyyətə başlayıb




Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafı və yerli istehsalın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində "Naxçıvan Tikiş" ASC və "Pozitif" MMC-nin birgə fəaliyyəti nəticəsində Naxçıvan şəhərində yeni tikiş fabriki fəaliyyətə başlayıb.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, tədbir Azərbaycan və Türkiyənin Dövlət himnlərinin səslənməsi, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.





Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev, əmək və əhalinin sosial müdafiəsi naziri Fərid Bağırzadə və Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya son illərdə Naxçıvanda özəl sektorun inkişafı, investisiya mühitinin yaxşılaşdırılması və ixracyönümlü yerli istehsalın təşviqi istiqamətində görülən işlərdən bəhs ediblər. Dövlət başçısının Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafına göstərdiyi diqqətin növbəti nümunəsi olaraq 1 yanvar 2026-cı ildən tətbiq olunan vergi, gömrük və sosial sığorta güzəştlərinin önəmi xüsusilə vurğulanıb və sahibkarların yaradılan bu əlverişli imkanlardan istifadə edərək fəaliyyətlərini genişləndirdikləri, eyni zamanda yeni istehsal və xidmət sahələri yaratdıqları ifadə olunub.

Bildirilib ki, tekstil sahəsində yeni istehsal müəssisəsinin fəaliyyətə başlaması iqtisadi fəallığın artırılması, əhalinin məşğulluğunun təmin edilməsi və yerli məhsulların bazardakı payının genişləndirilməsi baxımından əhəmiyyət kəsb edir. Yeni fabrik, həmçinin Naxçıvanda qadınların məşğulluğunun artırılmasına imkan yaradır.

Çıxışlarda müəssisənin kollektivinə gələcək fəaliyyətlərində uğurlar arzulanıb, fabrikin muxtar respublikanın sosial-iqtisadi inkişafına töhfələr verəcəyinə əminlik ifadə olunub.

Müəssisə rəhbərliyi Naxçıvanda sahibkarlığın inkişafına göstərilən diqqət və dəstəyə görə dövlət başçısına minnətdarlığını ifadə edib. Ardınca açılış mərasimində iştirak edən qonaqlar fabrikdə yaradılan şəraitlə tanış olub, istehsal prosesi və gələcək fəaliyyət planları barədə məlumatlandırılıblar. Müəssisədə işçilər üçün müasir iş şəraiti ilə yanaşı, onların gündəlik qidalanması üçün imkanlar da yaradılıb.

Qeyd edək ki, müəssisədə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb və istehsal prosesində, əsasən, adıçəkilən ölkədən idxal olunan parçalardan istifadə ediləcək. Fabrikdə müxtəlif növ tekstil məhsulları istehsal ediləcəkdir ki, bu məhsulların daxili bazarla yanaşı, xarici bazarlara ixracı da nəzərdə tutulur. Layihənin ilk mərhələsində 100 nəfərin məşğulluğunun təmin edilməsi, sonrakı mərhələdə isə işçi sayının 150 nəfərə çatdırılması planlaşdırılır.

## Dövlət qayğısı həyat şəraitinin yaxşılaşmasına xidmət edir



1995-ci ildə həqiqi hərbi xidmətə yollanan Asəf Xəlilov üçün Vətənin müdafiəsi müqəddəs borc idi. Qarabağda xidmət etdiyi günlərin birində düşmən təxribatı nəticəsində sağlamlığını itirən gənc əsgərin həyatında yeni və çətin bir mərhələ başladı. Lakin sonrakı illərdə göstərilən sosial dəstək, reabilitasiya xidmətləri və dövlət qayğısı onun gündəlik həyatının daha rahat qurulmasına imkan verib.

Culfa rayonunun Teyvaz kənd sakini olan Asəf Xəlilov deyir ki, şəhid ailələrinə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə göstərilən diqqət onların sosial rifahının yüksəldilməsində mühüm rol oynayır: "Həyat şəraitimizin yaxşılaşdırılması, sosial təminatımızın gücləndirilməsi istiqamətində görülən işlər böyük əhəmiyyət daşıyır, bizə dövlətimizin daim yanımızda olduğunu hiss etdirir.

Azərbaycanda şəhid ailələrinin, müharibə veteranlarının və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan sosial müdafiə siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər qəbul olunan Dövlət proqramları, imzalanan fərman və sərəncamlar müvafiq kateqoriyadan olan insanların sosial rifahının yüksəldilməsinə, onların həyat şəraitinin yaxşılaşdırılmasına və cəmiyyətə inteqrasiyasının gücləndirilməsinə xidmət edir".

Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Döyüşlərdə iştirak etmiş və sağlamlığını itirmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, tibbi və reabilitasiya xidmətlərinə çıxışının təmin olunması, məşğulluq imkanlarının artırılması və sosial həyata fəal qoşulmaları diqqət mərkəzində saxlanılır.







Bu sahədə mühüm xidmətlərdən biri Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən həyata keçirilir. Agentliyin strukturuna daxil olan Naxçıvan Protez-Ortopedik Bərpa Mərkəzində aşağı və yuxarı ətraf protezləri, müxtəlif növ ortezlər və korsetlər hazırlanır, həmçinin onların təmiri həyata keçirilir. Eyni zamanda istifadəçilərə təqdim olunan reabilitasiya vasitələrindən düzgün istifadə qaydaları barədə ətraflı məlumat verilir.

Cari ilin yanvar-may ayları ərzində mərkəz tərəfindən 71 nəfər əlilliyi olan şəxsə, ümumilikdə, 99 protez-ortopedik xidmət göstərilib. Həmçinin 97 nəfər 292 ədəd müxtəlif təyinatlı reabilitasiya vasitəsilə təmin olunub.

Əlilliyi olan şəxslərin xidmətlərə əlçatanlığını artırmaq məqsədilə səyyar xidmətlər də təşkil edilir. Bu xidmətlər sayəsində mərkəzə gəlmək imkanı olmayan şəxslər yaşadıqları ünvanda reabilitasiya vasitələri ilə təmin olunurlar. Cari ilin yanvar-may ayları ərzində muxtar respublikanın şəhər və rayonlarında təşkil edilən səyyar xidmətlər çərçivəsində 78 nəfərə 187 ədəd reabilitasiya vasitəsi təqdim olunub.

Səyyar reabilitasiya xidmətinin əsas məqsədi müvafiq kateqoriyadan olan şəxslərin gündəlik həyat şəraitinin yaxşılaşdırılması, onların sosial reabilitasiyasının təmin edilməsi və cəmiyyətə fəal inteqrasiyasına dəstək göstərilməsidir. Bu istiqamətdə həyata keçirilən tədbirlər sosial həssas əhali qruplarının rifahının yüksəldilməsinə, dövlətin sosial siyasətinin icrasında inklüzivliyin gücləndirilməsinə xidmət edir.



Asəf Xəlilov da göstərilən bu xidmətlərdən yararlanan vətəndaşlardandır. O, ötən illərdə mənzil və avtomobillə təmin olunduğunu, mütəmadi tibbi müayinələrdən keçdiyini və ehtiyac duyduğu reabilitasiya vasitələrinin yaşadığı ünvana çatdırıldığını bildirir.

"Bu gün həyatımızın müxtəlif sahələrində dövlət qayğısını hiss edirik. Müalicə və müayinələrdən yararlanır, ehtiyac duyduğumuz reabilitasiya vasitələri ilə təmin olunuruq. Bütün bunlar gündəlik həyatımızı daha rahat qurmağa kömək edir", – deyə müsahibim vurğulayır.

Görülən işlər bir daha göstərir ki, ölkəmizdə həyata keçirilən sosial müdafiə tədbirləri cəmiyyətin həssas qruplarının rifahının yüksəldilməsinə yönəlib. Müharibə iştirakçıları və əlilliyi olan şəxslərin sosial təminatının gücləndirilməsi, onların reabilitasiya xidmətləri ilə əhatə olunması və həyat şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bu sahədə dövlət siyasətinin ardıcıl və məqsədyönlü şəkildə davam etdirildiyini təsdiqləyir.

Ramiyə ƏKBƏROVA

*Cari il mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən kənd təsərrüfatı müşavirəsində dövlət başçısının dərinməzmunlu nitqi bu sahənin ölkə siyasətində prioritet istiqamət olduğunu bir daha təsdiqləyir. Eyni zamanda son illərdə müşahidə olunan müasir inkişaf perspektivləri yeni yanaşmaların və daha çevik idarəetmə mexanizmlərinin tətbiqini zəruri edir. Bu baxımdan, kənd təsərrüfatının inkişafına dair hazırlanan yeni Dövlət Proqramı ölkənin aqrar siyasətində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Dövlət Proqramının icrası çərçivəsində kənd təsərrüfatının modernləşdirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər Naxçıvanda da istehsal imkanlarının genişlənməsinə mühüm təkan verəcək.*



# Aqrar sahədə modernləşmə: yeni Dövlət Proqramı Naxçıvan üçün də yeni perspektivlər açır

***Naxçıvanda aqrar sahədə süni intellekt əsaslı həllərin tətbiqinə başlanılması nəzərdə tutulur***

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Məhəmməd Zeynalov "Şərq qapısı"na müsahibəsində bildirir ki, dövlət başçısının bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə dair keçirdiyi müşavirə aqrar sahənin inkişafı baxımından olduqca mühüm əhəmiyyət daşıyır. Müşavirədə və eləcə də qəbul olunan yeni Dövlət Proqramında əsas diqqət ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, daxili istehsalın artırılması, su ehtiyatlarından səmərəli istifadə və innovativ texnologiyaların tətbiqinə yönəlib. Bu istiqamətlər muxtar respublika üçün də xüsusi aktuallıq kəsb edir və qarşıdakı dövr üçün yeni inkişaf mərhələsinin əsasını formalaşdırır.

O qeyd edir ki, cari ildə muxtar respublikada taxıl sahələrinin 20 min hektara çatdırılması hədəf olaraq müəyyən edilib. Son illər həyata keçirilən meliorasiya tədbirləri, müasir suvarma sistemlərinin tətbiqi, subsidiya mexanizmlərinin genişləndirilməsi və fermerlərə göstərilən dövlət dəstəyi əkin sahələrinin artırılması üçün əlverişli imkanlar yaradıb. Məqsəd yalnız əkin sahələrinin genişləndirilməsi deyil, həm də məhsuldarlığın yüksəldilməsi və daxili bazarın yerli istehsal hesabına daha etibarlı təmin olunmasıdır.

"Müşavirədə xüsusi diqqətçəkən məsələlərdən biri də kənd təsərrüfatında rəqəmsal texnologiyaların və süni intellektin tətbiqi ilə bağlı oldu. Artıq yaxın müddət ərzində muxtar respublikada da süni intellekt əsaslı həllərin tətbiqinə başlanılması nəzərdə tutulur. Bu isə aqrar sahədə idarəetmənin daha çevik, dəqiq və səmərəli təşkilinə imkan verəcək.

Ümumilikdə, həyata keçirilən tədbirlər göstərir ki, qarşıya qoyulan əsas məqsəd yalnız ənənəvi kənd təsərrüfatını inkişaf etdirmək deyil, eyni zamanda innovativ, rəqabətqabiliyyətli və müasir aqrar sistem formalaşdırmaqdır. Muxtar respublikanın mövcud potensialı, dövlət dəstəyi və tətbiq olunan yeni texnologiyalar yaxın illərdə kənd təsərrüfatının inkişafında daha mühüm nəticələrin əldə olunacağını deməyə əsas verir", – deyə nazirliyin rəsmisi əlavə edib.

***Dövlət dəstəyi və düzgün aqrotexniki yanaşma yüksək məhsuldarlıq yaradır***

Həm müşavirədə, həm də Dövlət Proqramında xüsusilə taxılçılığın inkişafı və buğ-



da istehsalında idxaldan asılılığın azaldılması məsələsi əsas hədəflərdən biri kimi önə çəkilib. Bu strateji xətt ərzaq təhlükəsizliyinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Məhz bu kontekstdə Şərur rayonunun Düdəngə kənd sakini Mübariz Şirəliyevin təsərrüfat fəaliyyəti diqqət çəkir. O, uzun illərin təcrübəsinə əsaslanaraq torpağa bağlılıq və düzgün aqrotexniki yanaşma sayəsində yüksək nəticələr əldə edən fermerlərdəndir. Ötən il 150 tondan artıq taxıl istehsal edən təsərrüfatçı cari ildə 23 hektar sahədə əkin aparıb və yüksək məhsul əldə edəcəyinə inanır.

Fermer bildirir ki, əkinçilik də digər sahələr kimi təcrübə və bilik tələb edir: "Torpağın xüsusiyyətlərini düzgün anlamaq və aqrotexniki qaydalara riayət etmək məhsuldarlığın əsas şərtlərindəndir. Xüsusilə suvarmanın vaxtında və normasında aparılması məhsulun keyfiyyətinə birbaşa təsir göstərir. Taxılçılıqda yüksək məhsuldarlığın əldə olunması üçün növbəli əkin sistemi mühüm əhəmiyyət daşıyır. Bu yanaşma həm alaq otlarının yayılmasının qarşısını alır, həm də bitkilərin daha sağlam inkişafına şərait yaradır. Eyni zamanda gübrələmənin düzgün aparılması və alaq otlarına qarşı mübarizə məhsuldarlığın artırılmasında əsas amillərdəndir. Onu da vurğulamaq yerinə düşər ki, dövlət tərəfindən göstərilən dəstək, xüsusilə subsidiyalar və gübrə təminatı təsərrüfatların genişlənməsinə stimul verir və aqrar sahədə ümumi inkişafı sürətləndirir".

Mübariz Şirəliyevin sözlərinə görə, müasir kənd təsərrüfatı artıq yalnız fiziki əmək deyil, həm də bilik, planlaşdırma və düzgün idarəetmə tələb edən sahəyə çevrilib. Bu səbəbdən aqrotexniki yanaşmaların tətbiqi kənd təsərrüfatında uğurun əsas şərtlərindən biridir.

Müasir suvarma sistemlərinin genişləndirilməsi, subsidiyalar və infrastruktur layihələri istehsal imkanlarını artırmaqla yanaşı, fermerlərin fəaliyyətini stimullaşdırır. Düdəngə kənd sakini Mübariz Şirəliyevin təsərrüfatında əldə olunan nəticələr göstərir ki, dövlət dəstəyi ilə aqrotexniki bilik və təcrübənin vəhdəti yüksək məhsuldarlığın əsas şərtidir. Bu yanaşma ölkədə ərzaq təhlükəsizliyinin gücləndirilməsinə və aqrar sektorun dayanıqlı inkişafına xidmət edir.

Təsərrüfatçı taxılçılıqla yanaşı, toxumçuluq fəaliyyəti ilə də məşğuldur. O eyni zamanda 16 hektar ərazidə şaftalı, ərik və gavalı bağları salıb. Bağın 1,2 hektarı intensiv üsulla qurulub və növbəti illərdə qalan sahələrin də mərhələli şəkildə intensiv formaya keçirilməsi nəzərdə tutulur. Suvarmada isə, əsasən, müasir damcı üsulundan istifadə olunur ki, bu da suya qənaətlə yanaşı, məhsuldarlığın artırılmasına imkan verir.

Əminliklə demək olar ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aqrar sahədə həyata keçirilən dövlət siyasəti və 2026-2030-cu illəri əhatə edəcək Dövlət Proqramı çərçivəsində qarşıya qoyulan yeni hədəflər regionlarda, o cümlədən Naxçıvanda kənd təsərrüfatının inkişafına ciddi təkan verəcək. Yeni Dövlət Proqramının əsas fərqi yalnız istehsalın artırılmasına deyil, həm də rəqəmsal texnologiyalar və innovativ idarəetmə mexanizmləri vasitəsilə aqrar sektorun keyfiyyətcə yeni mərhələyə keçirilməsinə yönəlməsidir. Naxçıvanda həyata keçiriləcək tədbirlər isə bu hədəflərin region səviyyəsində reallaşdırılmasına xidmət edəcək.

**Nail ƏSGƏROV**



## Naxçıvan-Ordubad magistral avtomobil yolunda asfaltlanma işləri aparılır

Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Naxçıvan-Ordubad magistral avtomobil yolunda aparılan cari təmir işləri mərhələli şəkildə davam etdirilir.

İcra olunan tədbirlər çərçivəsində əvvəlcədən deformasiyaya uğramış hissələrdə köhnə asfalt-beton örtüyü frezlənərək ərazidən kənarlaşdırılıb, hazırda isə yolun müəyyən hissələrinə yeni asfalt örtüyünün verilməsi işləri həyata keçirilir.

Təmir-bərpa işlərinin əsas məqsədi hərəkətin rahatlığını və təhlükəsizliyini daha da artırmaq, yolun istismar vəziyyətini yaxşılaşdırmaqdan ibarətdir.



## Naxçıvan avtobus parkında asfalt örtüyü yenilənir



Naxçıvan avtobus parkının ərazisində təmir-bərpa işləri həyata keçirilir.

"Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin mətbuat xidmətindən verilən məlumata görə, aparılan işlər çərçivəsində deformasiyaya uğramış köhnə asfalt-beton örtüyü frezlənərək ərazidən kənarlaşdırılır. Daha sonra səthin hamarlanması və hərəkətin əlverişli vəziyyətə gətirilməsi məqsədilə yeni asfalt-beton örtüyünün verilməsi işləri icra olunur.

Görülən tədbirlər nəticəsində avtobus parkının ərazisində nəqliyyat vasitələrinin təhlükəsiz və rahat hərəkəti təmin olunacaqdır.

Təmir-bərpa işlərinin qısa müddət ərzində başa çatdırılması nəzərdə tutulur.

# Türk dünyasının birlik səsi olan möhtəşəm tarix: Türkoloji Qurultay və dil məsələləri



**Əbülfəz QULİYEV**
*AMEA-nın müxbir üzvü*

*Azərbaycan Respublikası müstəqilliyinə qovuşduqdan sonra sovet ideologiyasının 70 il ərzində milli dilimizin, ədəbiyyatımızın, tariximizin, mənəviyyat və mədəniyyətimizin tarixində həyata keçirdiyi təxribatlar yavaş-yavaş aşkar edilib aradan qaldırılmaqdadır. Bu baxımdan, Prezidentimiz cənab İlham Əliyevin 1926-cı ildə keçirilmiş I Ümumittifaq Bakı Türkoloji Qurultayının 100-cü ildönümünün qeyd edilməsi haqqında imzaladığı böyük siyasi əhəmiyyətə malik olan Sərəncam diqqəti cəlb edir. Sərəncamda qeyd edildiyi kimi, yazı məsələsi Azərbaycanda hələ XIX əsrdən başlayaraq Mirzə Fətəli Axundov başda olmaqla dövrün tərəqqipərvər ziyalılarının diqqət mərkəzində dayanmışdır. Həmin dövrdən etibarən Azərbaycan mədəniyyətinin inkişafını müəyyənləşdirən Avropa yönümlü maarifçilik hərəkatının nümayəndələri latın qrafikası əsasında tərtib olunmuş əlifba ideyası uğrunda mübarizə aparmışlar. Məhz buna görə belə mütərəqqi hərəkatın önündə gedən Azərbaycanın əlifba islahatlarının həyata keçirilməsində də qabaqcıl mövqe tutması təbii hal kimi qarşılanmalıdır. Hələ 1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə yaradılmış "Yeni türk əlifba komitəsi"nin səyləri nəticəsində 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətlənmiş, bu isə yeni əlifbaya keçidlə bağlı tərəddüd edən türk xalqlarının daha mütəşəkkil fəaliyyətinə təkan vermişdir. Bu baxımdan, I Türkoloji Qurultayın artıq dünya türkologiyasının mərkəzinə çevrilən Bakıda keçirilməsini qanunauyğun hal hesab etmək lazımdır.*

Qurultay öz işinə 26 fevral 1926-cı il tarixdə, axşam saat $19^{00}$-da İsmailiyyə binasında başladı. 131 nəfər nümayəndənin iştirak etdiyi, 17 iclası keçirilən, 38 məruzənin oxunub müzakirə edildiyi, türk xalqlarının tarixinə, etnogenezinə, etnoqrafiyasına, dil, ədəbiyyat və mədəniyyətinə həsr olunmuş bu beynəlxalq məclisə dünyanın N.Marr, V.V.Bartold, V.Tomsen, V.Banq kimi görkəmli alimləri də dəvət olunmuşdu.

6 mart 1926-cı il tarixədək davam edən qurultayda iyirmiyədək bölmə fəaliyyət göstərmişdir. Bu bölmələrdə tanınmış şərqşünas alim V.V.Bartold "Türk xalqlarının tarixinin öyrənilməsinin müasir vəziyyəti və vəzifələr", S.F.Oldendurq "Türk xalqları arasında ölkəşünaslıq işlərinin metodları", A.A.Müller "Türk xalqlarının təsviri sənəti haqqında", Mesaros "Anadolu türkləri etnoqrafiya araşdırmalarının bugünkü durumu" və sair mövzularda maraqlı məruzələrlə çıxış etmişlər.

Qurultayın mərkəzi məsələsi əlifba islahatı idi. Bununla SSRİ-nin türk xalqlarının yazı sistemini guya onların gələcək inkişafının qayğısına qalaraq təkidlə islah etmək istəyən sovet rəhbərlərinin başlıca məqsədi isə ittifaqın türk xalqlarını Türkiyə təsirindən kənar etmək, uzaq tutmaq, müsəlman dünyası ilə mənəvi-mədəni əlaqəni qırmaq idi. Sovet rəhbərlərinin bu ziyanlı planlarına baxmayaraq, 1926-cı il fevral ayının 26-da Qafqazın ən böyük şəhəri sayılan neft Bakısında işə başlayan bu Türkoloji Qurultayın türk xalqlarının taleyindəki tarixi rolu sovet rəhbərlərinin siyasi məqsədlərindən daha üstün oldu. Qeyd etmək lazımdır ki, ən mühüm hadisə 1906-cı ilin Nijninovqorod, 1917-ci ilin Moskva Qurultayından sonra Rusiyadakı 24 milyonluq türk xalqlarını təmsil edən nümayəndələrin Bakıda toplaşması idi. Bundan əvvəl keçirilmiş iki qurultay rəsmi olaraq Rusiya müsəlmanları qurultayı adı altında keçirilmişdisə, Bakı məclisi ilk beynəlxalq türk qurultayı idi. Qurultayın bu adla keçirilməsi əsrin əvvəllərindən başlanan siyasi və milli özünüdərk proseslərinin məntiqi nəticəsi idi.

Qeyd etdiyimiz kimi, bu qurultayın əsas mövzusu dil, əlifba məsələsi idi. Ona görə də 7 bölmədə sırf dil problemləri müzakirə edilmişdir.

Əlifba bölməsində əsas mübahisə islahatçılarla (ərəb əlifbasının islahatı) latınçılar arasında gedirdi. Burada latın əlifbası haqqında Azərbaycanın müsbət mövqeyini açıqlayan Cəlal Məmmədzadə "Türk xalqlarının əlifba sistemlərinə dair" mövzusunda saat yarım məruzə etdi. Tatar alimi Alimcan Şərəf isə öz məruzəsində islah olunmuş ərəb əlifbasının işlədilməsinin daha çox məqsədəuyğun olacağını müxtəlif arqumentlər gətirərək sübut etməyə cəhd edirdi. Uzun mübahisələrdən sonra səsvermə keçirilmiş, lehinə 101, əleyhinə 16 səs verilmişdir. Beləliklə, latınçılar Azərbaycan nümayəndələri başda olmaqla böyük səs çoxluğu ilə qalib gəldilər.

Sovet rəhbər dairələrinin bu qurultayın keçirilməsində məkrli planları vardı. Belə ki, latın əlifbasını qəbul etməklə o zaman ərəb əlifbasını işlədən Türkiyədən ayrılmağı nəzərdə tutan sovet rəhbərliyinin bir fikri də dəyişmə, uzaqlaşma ənənəsinin əsasını qoymaq idi. Amma Türkiyə Cümhuriyyəti, Mustafa Kamal Atatürk başda olmaqla hadisələrin gedişini diqqətlə izləməkdə idi. Ona görə də Anadolu türkləri öz qan qardaşlarından mədəni ənənələr baxımından uzaq düşməmək üçün az sonra, yəni 1928-ci ilin noyabr ayında latın əlifbasına keçdilər. Halbuki bu hadisə Azərbaycanda 1929-cu il 1 yanvardan tətbiq olundu. Bundan əlavə, çox təəssüf ki, qurultayda bütün türk xalqları üçün vahid yeni yazı, əlifba sistemi deyil, hər bir türk xalqı üçün ayrıca əlifba sisteminin tərtib edilməsi qərara alındı. Qurultaydan sonra yenə Bakıda 3-6 iyun 1927-ci il tarixdə yeni türk əlifbası komitəsinin iclasında yazı məsələləri müzakirə olunmuşdu.

Orfoqrafiya bölməsinin iclaslarında görkəmli dilçi alim, fonetika üzrə mütəxəssis Şerbanın "Orfoqrafiyanın əsas prinsipləri və bunların sosial əhəmiyyəti" və Azərbaycan alimi Fərhad Ağazadənin "Türk dillərində düzgün yazı" mövzusunda oxuduğu məruzələr nəzəri baxımdan çox diqqətəlayiq idi. Bu bölmədə maraqlı və faydalı əməli təkliflər də irəli sürüldü: orfoqrafiya lüğətləri yaradılsın, latın əlifbası əsasında vahid fonetik-elmi transkripsiya hazırlansın.

Terminologiya bölməsində türk dillərindəki terminoloji problemlər müzakirə obyektinə çevrilmişdir. Maraqlı cəhətdir ki, bu bölmədə oxunmuş beş məruzədən ikisi Azərbaycan alimlərinə məxsus idi. Professor Bəkir Çobanzadə "Elmi terminologiyanın sistemi haqqında", Hənəfi Zeynallı isə "Türk dillərində elmi terminologiyanın problemləri" mövzusunda məruzə etmişlər. Termin məsələsində türk xalqlarının ziyalıları arasında 4 mövqe var idi: avropaçılar, türkçülər, xalqçılar və islamçıların mövqeyi. Qurultayda bütün bu meyillərin tərəfdarları bir-bir çıxış etdilər, bütün mövqelər müzakirə olundu. Çıxışlar əsasında katiblik terminologiya ilə bağlı qərar və tövsiyələr hazırladı. Qurultayın bu qərar və tövsiyələri, bütövlükdə, elmi və obyektivdir və bu gün üçün də böyük əhəmiyyət daşıyır. Bu qərar və tövsiyələrin əsas prinsipləri aşağıdakılardan ibarətdir:

*– termin yaradıcılığı hər üç mənbəyə: ümumtürk, ərəb-fars və rus-Avropa qaynaqlarına üz tutmalıdır;*

*– termin yaradıcılığında əsas mənbə türk dillərinin öz daxili potensialı olmalıdır və yeri gəldikcə beynəlmiləl fonda və arxaik qaynaqlara da müraciət edilməlidir;*

*– alınan kök sözlərə üstünlük verilməlidir, onlar fonetik tərcümə prinsipi ilə verilməlidir (ahəng qanunu, cingiltiləşmə və s.);*

*– alınma sözlərdə ortaqlıq prinsipinə əməl edilməlidir və beynəlmiləl fond əsas götürülməlidir;*

*– termin yaradıcılığında hərfi tərcümədən – kalka yolundan mümkün qədər qaçılmalıdır;*

*– mürəkkəb ixtisarlarda türk dillərinin əsas qanunlarına istinad edilməlidir.*

Tədris-metodika bölməsində türk dilinin tədrisi məsələləri müzakirə olunmuş, burada digər məruzəçilərlə yanaşı, Azərbaycan alimi Əfəndizadənin türk dillərinin tədris metodları haqqında oxuduğu məruzə maraqla qarşılanmışdır.

Qohum dillər bölməsində qohum və qonşu dillərin müasir elmi metodlarla öyrənilməsindən bəhs edildi və bu sahənin altayşünaslıq, müqayisəli dilçilik sahəsindəki perspektivləri göstərildi. Bu bölmədə məşhur altayşünas Nikola Poppenin "Türk dillərinin tunqus-monqol və fin-uqor dilləri ilə qohumluq münasibətlərinə dair" və Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin dekanı, professor Bəkir Çobanzadənin "Türk dillərinin yaxın qohumluğu" mövzusunda məruzələri elm adamlarının böyük marağına səbəb oldu.

Ədəbi dil bölməsində türk ədəbi dillərinin norma və üslub xüsusiyyətləri üzərində dayanan türkoloqların ortaq ədəbi dil və onun təbii-elmi prinsipləri haqqında mühüm fikirləri səsləndi, Türkiyədən gəlmiş görkəmli elm adamı, dünya şərqşünaslığında özünəməxsus yer tutan Fuad Köprülüzadə "Türk xalqlarında ədəbi dilin inkişafı" mövzusunda məruzə etdi. Burada, eyni zamanda ümumtürk ədəbi dili haqqında qızğın mübahisələr getdi. Ümumi qənaət bundan ibarət oldu ki, ümumtürk ədəbi dili məfhumu əlçatmaz bir iş deyil, ancaq onu bürokratik yolla, əmrlə həll etmək olmaz, ona təbii yolla çatmaq olar və bu iş çox vaxt aparan mürəkkəb bir prosesdir.

Təşkilat komitəsinin sədri Səmədağa Ağamalıoğlu 6 mart 1926-cı il tarixdə, səhər saat $10^{00}$-da qurultayın son iclasında son dövrlərdə Şərqdə iki böyük inqilabın baş verdiyini, bunlardan birinin Ankarada xilafətə son verilməsi, ikincisinin isə Bakıda latın əlifbasına keçilməsi olduğunu qeyd edib: "Yaşasın Səmərqənddəki II qurultay!" deyərək tarixi qurultayın öz işini başa çatdırdığını elan etdi (II qurultayın Səmərqənd şəhərində keçirilməsinə qərar verilmişdi, ancaq sovet rəhbərliyi artıq istədiyinə nail olduğundan Bakı Türkoloji Qurultayı bu sahədə ilk və son qurultay oldu).

Yuxarıda qeyd etdiyimiz kimi, qurultayda keçmiş SSRİ-nin müttəfiq və muxtar qurumları təmsil olunmuşdu. Qurultayda muxtar respublikamızı təmsil etmək üçün o zaman Naxçıvan MSSR xalq maarif komissarı işləmiş H.Musazadə Bakı şəhərinə ezam edilmişdi. H. Musazadə Naxçıvana qayıtdıqdan sonra qurultay təəssüratlarını "Şərq qapısı" qəzetinin 18 mart 1926-cı il tarixli 9 saylı nömrəsində çap etdirmişdi. O yazırdı: "İstər Azərbaycan, istərsə də şimal türkləri bu mühüm və əlzəm qurultayın çağırılmasını tam iki sənədir ki, gözləyirdilər. Bu tarixi vaqiə Azərbaycan Cümhuriyyətinin təşəbbüsü ilə olduğundan Bakıda çağırıldı. Buraya gəlmiş özbək, təsəkli (şapka) tatar, milli qiyafəli qazax, buryat, qırğız, yakut, qaraçaylı, çeçen, çuvaş və başqa türk millətinə mənsub qövmləri gördükdə otuz milyon Şuralar İttifaqında və on iki milyon Anadoluda yaşayan türklərin dil və ədəbiyyat yaratması daha əzəmətli görünürdü. Bunlardan başqa, nümayəndələr arasında şura akademik və professorları ilə Avropanın məşhur müstəşriq və türkoloqları da iştirak edirdi. Məruzələr rus, tatar dilində olduğu kimi Azərbaycan, Anadolu, başqırt, Krım, özbək və türk ləhcələrində də oxunurdu. Böyük türk mədəniyyəti sarayının zalı (sabiq İsmailiyyə) qurultayın ibtidasından intəhasına qədər olduqca izdihamlı idi. Burada Azərbaycan ədəbiyyatının 50 sənəliyi münasibətilə açıq ədəbiyyat sərgisi, Azərbaycan maarifinin 5 sənədə əldə etdiyi müvəffəqiyyət şəbəkəsi, türk-tatar qövmlərinin ədəbiyyatı nümunələri sərgisi diqqəti cəlb ediyordu. Yeni türk (latın) əlifbasının başqa türk-tatar və əski əlifbalardan üstün olmasını elmi surətdə sübut etməkdən ötrü xüsusi əlifba sərgisi qurulmuşdur. Burada əski yunan, uyğur, orxon, kufi, ərəb, Mirzə Fətəli Axundov, Əfəndiyev, Məhəmməd ağa Şahtaxtinski və başqalarının əlifbalarını görərdiniz. Bir tərəfdən yeni əlifba ilə çap edilmiş ədəbiyyat, digər tərəfdən isə şəhəri və qurultay binasını təzyin edən müxtəlif şüarlar qurultayın ən əhəmiyyətli məsələsi olan (yeni əlifba) nümayəndə və qonaqların artıq diqqətini cəlb etdiyi, yeni əlifbanın əski ərəb və islah olunmuş əlifbalardan əlverişli və texniki cəhətdən üstün olduğunu göstərdiyi



üçün bu məsələ səsə qoyulduqda 131 nümayəndədən yüz biri lehinə səs verdi. Azərbaycan, Yakutıstan, Qırğızıstan, İnquşıstan, Qaraçay, Çərkəz, Çeçen, Qabardin, Bolqar, Osetiya, Başqırdıstan, Türkmənistan, Özbəkistan Cümhuriyyət və əyalətlərində yeni əlifbanın tətbiq edilməsini və qayət böyük və müsbət nəticə verdiyini həqiqət olaraq qurultay qeyd etdi".

Qurultayın tarixi əhəmiyyəti yalnız qeyd olunan dövlətlər və millətlər üçün deyil, bütün dünya siyasəti, ümumşərq taleyi baxımından çox ciddi əhəmiyyət kəsb etdiyi üçün tezliklə onun əks-sədası bütün dünyaya yayıldı. İllər keçdikcə bu əks-səda da böyüyüb artmağa başladı. XX əsrin 60-70-ci illərində SSRİ-də keçirilən böyük türkoloji simpozium və konfranslarda I Bakı Türkoloji Qurultayı, onun qərarları, orada söylənən elmi mülahizələr və sınanmış elmi mühakimələr dönə-dönə təkrarlandı.

1986-cı ildə Qazaxıstanın ozamankı paytaxtı Alma-Ata şəhərində bu qurultayın 60 illiyi münasibətilə mənim də dəvət olunduğum Ümumittifaq Türkoloji Konfransı keçirildi. Hətta 1966-cı il sentyabrın 23-27-də mənim də iştirak etdiyim Ankarada keçirilən III Uluslararası Türk Dili Qurultayının xüsusi bir iclası I Bakı Türkoloji Qurultayına həsr olundu. Bu qurultayda qərara alındı ki, I Bakı Türkoloji Qurultayının bütün materialları çap olunsun. Bundan sonra yenə Ankarada I Türkoloji Qurultayın 75-ci ildönümü münasibətilə böyük bir simpozium keçirildi. Müstəqillik illərində Azərbaycanda dövlət səviyyəsində Türk dünyası ilə bağlı məsələlərə həmişə diqqət və qayğı göstərilmişdir. Belə ki, ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2006-cı ildə Bakı Türkoloji Qurultayının 80 illik, 2016-cı ildə isə 90 illik yubiley tədbirləri yüksək səviyyədə qeyd edilmişdir.

37-ci il repressiyaları, latın əlifbasının zorla rus qrafikası ilə əvəz olunması xalqımızın mübarizə əzmini qıra bilmədi. XX əsrin 90-cı illərində latın əlifbasına qayıtmaq ideyası yenidən gündəmə gəldi və tarixi həqiqətlər öz yerini tapdı. Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə 2001-ci il 1 avqust tarixdə bütün ölkə miqyasında latın qrafikasına keçildi. Latın əlifbası zamanın tələbi idi.

# Nənəmin nağılları



*Bir sevinc var hər üzdə,*
*Nənəm nağıl danışır.*
*Uzanmışıq qum üstə*
*Nənəm nağıl danışır.*
*Bax ulduzlar göz vurur,*
*Ay başım üstdə durur,*
*Onlar da sanki duyur,*
*Nənəm nağıl danışır.*

Məktəbdə ikinci sinifdə oxuyanda bu şeiri öyrənirdik. Elə bilirdim, mənim nənəm üçün yazılıb bu şeir – Minaş nənəm üçün. Nənəm nağıl danışırdı. Sirli-sehrli, aylı-ulduzlu bir məkanın, toy-düyünlü bir elin nağılını danışırdı: Murxuz nağılını. Uca dağların qoynunda yerləşən, buz bulaqlı, qoşa gur çaylı, quzeylərində qar, güneylərində lalələr bitən, qoca tarixin yoldaşı olan Murxuzun nağılını. Sübh açılan kimi Ağamalı babam (Minaş nənəmin atası, mən Minaş nənənin nəticəsiyəm) hər cür meyvə yetişən bağında dolanırdı, kənd sovetinin sədri Xansuvar idarənin qabağında gəzinirdi, Qaraxan sürünü haylayıb dağın başına qaldırırdı, Dadaş kirvə kənd mərkəzində dükanı açmağa tələsirdi, poçtalyon Xası məhəllələri gəzib qəzet-jurnal, məktub paylayırdı. Asabil əmi rayon mərkəzi Sisyandan qayıdırdı – axşam milis idarəsində növbədə idi. Kəndin qadınları fermaya sağıma tələsirdi, qayğısız uşaqlar məktəbə gedirdi. Yolboyu məktəbdə edəcəkləri dəcəllikləri, şeytanlıqları danışanlar da vardı.

Bir də baxırdın babam Yaranmışın QAZ-53 markalı maşını kəndin içindən sürətlə şütüyüb üzü Sisyana yol alırdı. Gəlinlər, qızlar bir-birini səsləyib iməci çağırırdı: gəbə toxumağa, əriştə kəsməyə, qovurma eləməyə. Əli yüngül, ayağı sayalı Minaş bacını da işin üstünə çağırırdılar: "Sən başla, əlin yüngüldü, iş tez bitir" deyə. Nənəmin toxuduğu xalçalar mahalda məşhur imiş. Hamı axşam olmamış işini bitirməyə tələsirdi. Axşam kəndin klubunda Aşıq Xançoban saz çalıb oxuyacaqdı. Kənddə şənlik vardı.

Minaş bacı gümüş kəmərini belinə qurşayıb kənd içinə çıxanda vəziyyət dəyişirdi. Hamı onu "Minaş qardaş" çağırırdı. Onun kişi qeyrəti, kəsərli sözü, ər gücü vardı. Ot şələsini görənlər "Maşın ləngərləyib ot tökülüb", – deyəndə kolxoz sədri "Yox, buradan Minaş qardaş keçib", – deyərmiş. Bu allı-güllü, bol-bəhərli diyarın xoş güzəranı, sazlı-sözlü insanları, toy düyünlü evləri, savadlı adamları, qolbudaqlı igidləri, qonağa süfrə açan xanım-xatun qadınları var idi. Camaatın tək dərdi quzu otarmağa gedən uşaqların "Cinni (cinli) dərə" adlı yerdən sağ-salamat, qorxusuz keçib gəlmələri idi.

Məktəbdə öyrəndiklərimlə nənəmin danışdıqları təzad təşkil edirdi. Nənəmin nağıllarını öyrəndiyim nağıl növlərindən heç birinə aid edə bilmirdim. Sehrlimi? Realistmi? Məişət nağılımı? Heyvanlar haqqında nağılmı?

Nənəmin nağıllarında gözlənilmədən divlər, əjdahalar peyda olurdu. Pəhləvan cüssəli babam Yaranmış hayların dərsini yaxşı verirmiş. Əli avtomatlı, saqqallı, əcayib hay dilində danışan bu quldurlar kəndə soxulur, insanları ölümlə hədələyir, mal-qaranı, qoyun-quzunu talayır, kəndə divan tuturdular. Yolları kəsir, insanları döyür, evlərə soxulub qapıları qırır, "Kənddən çıxmasanız hamınızı öldürəcəyik", – deyirdilər. Nənəmin oğlu Asabil əminin milis serjantı olmasına baxmayaraq, yolunu kəsmiş, Məzəddin dayı (atamın dayısı) ilə birlikdə möhkəm döymüşdülər. Əmim 7-8 metr hündürlükdə olan körpüdən özünü çaya atmağa məcbur olmuşdu.

Nənəmin nağıllarında milis rəisi Qalistyan vardı. Bir gözü ilə saqqallı hayların quldur əməllərinə göz yumur, digər gözü ilə guya Murxuzun və digər kəndlərin sakinlərinə "Köçün gedin, ara sakitləşəndə qayıdarsız", – deyirdi. Guya xeyirxahlıq edib onlara dağ yolları ilə getməyi məsləhət bilirdi. Soyuqda, qarda, çovğunda dağ yoluyla canını götürüb qaçanlar dişi-dırnağıyla yığdığı hər şeyini arxada qoymağa məcbur idi.

Bundan sonra həsrət nağılı başlayırdı, qəriblik nağılı başlayırdı. Nənəm nağılı nağıla calayırdı. Köçkünlük, qəriblik həyatında nisgillə bərabər ümid nağılları da danışırdı nənəm. O nağıllardan Vətən həsrətli insanlar boylanırdı. Elindən, obasından ayrılanda bir ovuc torpaq götürən kim, pəncərənin şüşəsini, qapısının cəftəsini öpüb qucaqlayan kim, dağların başında son dəfə Murxuza baxıb "Bəlkə, bu yerlərə bir də gəlmədim", – deyən kim, qayıdacağım gün Qırxlar pirinə nəzir aparacam, qurban kəsəcəm deyən kim...

Evindən çıxanda təknədə çörəyi, səhəng dolusu suyu, taxçada zənbil dolusu yumurtası varmış nənəmin. Aş qazanı ocaqda evdən çıxmışdım deyirdi. Qayıdacağıq, çox olsa bir-iki günə gələrik. 1918-ci il təvəllüdlü Minaş nənəm yaşlılardan eşidibmiş ki, bir dəfə də Zəngəzuru tərk etməyə məcbur olublar. O zaman da hay fitnəsi ilə yurddan didərgin düşüblər, amma sonra qayıdıblar. İndi də elə olacaq. Son nəfəsinə kimi evinin açarlarını boynunda gəzdirdi nənəm. Çox təəssüf ki, nənəmin yığılı qoyduğu evindən əsər-əlamət qalmayıb. Bunu rəhmətlik atam Məzahir Murxuz kəndinin sosial şəbəkələrdə yayılan videolarında görmüş, hətta ağlamış, "Gorun çatlasın, ay Minaş, alt-üst mərtəbəli evin yoxdu daha", – demişdi. Nənəmin evi yüksəkkeyfiyyətli materiallardan tikilmişdi. Hay vandalları canımıza, malımıza, daş divarımıza da qəsd etmişdilər.

İllər ötdü oradan cavan çıxanlar ahıllaşdı, uşaqlar böyüdü. Amma həsrət səngimədi, itmədi daha da artdı, "Torpaq bizi çəkir", – dedilər. Sözlərinin, cümlələrinin əvvəli Murxuzla başladı, sonu Murxuzla bitdi. Həsrətin yangısı sönmədi, dinmədi, nənəmin dilində bayatılara çevrildi, nağıllara döndü, dərdli nəğmə kimi səsləndi. Hər dəfə əllərini göylərə açanda yurd həsrətli dualar etdi.

Bir gün həyatimizdə Kinyaz babanı gördüm. O nənəmin nağılından gəlməmişdi, canlı idi, var idi. Atama yalvarırdı: "Nolar, qurban olum, sizin o kürəkənə (bibimin yoldaşını nəzərdə tuturdu) de, məni atla tilin başına çıxartsın. Oradan o tərəfə özüm gedərəm. Atamın qəbri üçün burnumun ucu göynəyir".

Ermənistanla Naxçıvan Muxtar Respublikası Culfa rayonu, Boyəhməd kəndinin sərhədini nəzərdə tuturdu. Buradan dağ yoluyla Murxuza, İşıqlara getmək mümkün idi. Bibimgil bu kənddə yaşayırdı. Mən də "Yay tətilini necə keçirdim?" adlı inşa yazanda bu kənddə keçirdiyim günləri sevdiyimi yazmışdım. Kəndin Murxuza yaxın olmasını uşaq ağlımla əsaslandırmışdım. Murxuz mənə nənəmin nağıllarındakı əsrarəngiz cənnət diyar idi.

Kinyaz baba qısa müddət sonra minlərlə köçkün kimi bu nisgillə, bu həsrətlə dünyaya göz yummuşdu. Elə Minaş nənəm də, atam da bizlərə Vətən həsrətini miras qoyub getdilər. Özümüz qərib olduq, qəbrimiz də qərib olacaq dedilər. Böyüdükcə, dünyanı dərk etdikcə nənəmin nağıllarının acı bir gerçək olduğunu anladım. Nənəm nağıl danışmırmış, elin dərdini, sevgisini, həsrətini ruhumuza incə əyirib sıx toxuyurmuş. Bir gün o yurda qayıdacağımıza inanır, bizi o günlərə hazırlayırmış. Nənəm, atam o yurda xatirələrini, babam Yaranmışın məzarını, hər daşında, qayasında ayaq izlərini buraxıb gəldi. Onlar yurd yerlərini itirsələr də, ruhlarında yaşatdılar. Son günə qədər şükür duaları edəcəklərinə inandılar.

Mən də inanıram ki, nənəmin yarımçıq qalan nağılı tamamlanacaq, xeyir şərin üzərində qələbə çalacaq, onların köç etdiyi yerlərə qayıdacaq, əcdadlarımızın məddəni olan o torpaqlarda şükür duaları edəcəyik. Dağıdılmış, viran edilmiş evlərimizi quracaq, söndürülmüş ocağımızı gur qalayacağıq. Çünki Vətən, sadəcə, torpaq deyil, həm də borcdur, əmanətdir!

**Nihad ABBASOV**
***Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin Beynəlxalq ticarət və logistika ixtisası üzrə III kurs tələbəsi***

## Naxçıvanın qədim tarixi ilə bağlı olan İlandağ yazısı 30 illik axtarışdan sonra tapılıb

Naxçıvanın qədim tarixinin öyrənilməsi istiqamətində aparılan tədqiqatlar zamanı mühüm elmi əhəmiyyətə malik yeni fakt ortaya çıxıb. İlandağ yazısının 30 illik axtarışlardan sonra yenidən aşkar olunması qədim tariximizin araşdırılması baxımından mühüm hadisə hesab olunur. Bu barədə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü, Naxçıvan Dövlət Universitetinin professoru Vəli Baxşəliyevlə həmsöhbət olduq.

Vəli Baxşəliyev bildirdi ki, İlandağ yazısı XX əsrin 80-ci illərində, daha dəqiq desək, 1988-1989-cu illərdə elm aləminə məlum olub. Yazını həmin ərazidə çalışan geoloqlar aşkar edərək onun fotoşəkillərini və koordinatlarını Ermənistan Milli Elmlər Akademiyasına göndəriblər. Yazını oxumaq mümkün olmadığından materiallar sonradan İtaliya arxeoloqlarına təqdim olunub.

Professor qeyd etdi ki, məşhur urartuşünas alim Mirjo Salvini yazını oxuyaraq onun məzmununu müəyyənləşdirib. 1996-cı ildə bu yazı haqqında məqalə dərc olunub və həmin yazının məzmunu barədə geniş məlumat verilib. Onun sözlərinə görə, yazıda Urartu hökmdarı İşpuini və onun oğlu Menuanın Arsini şəhərlərini fəth etdikləri, Poladi ölkəsində Tanrı Haldinin şərəfinə abidə ucaltdıqları qeyd olunur. Həmçinin Tanrı Haldiyə bir öküz, onun xanımına isə bir inək qurban verildiyi bildirilir. Bu məlumatlardan aydın olur ki, İşpuini və Menua birgə yürüş təşkil edərək Naxçıvan ərazisindən keçməklə Cənubi Azərbaycandakı Poladi ölkəsinə gediblər. Həmin dövrdə Naxçıvanda Etiuni tayfa birliyi mövcud idi. Bölgədə aşkar olunan arxeoloji abidələr də göstərir ki, Naxçıvan Etiuni tayfa birliyinin əsas yaşayış məkanlarından biri olub. Bu tip abidələr Ordubad, Şahbuz və Şərur rayonlarının ərazilərində də qeydə alınıb.

Müsahibimin sözlərinə görə, etiunilər bölgədə kifayət qədər güclü olduqlarından urartular dəfələrlə hücum etmələrinə baxmayaraq, bu əraziləri tam şəkildə ələ keçirə bilməyiblər. İlandağ yazısında Əlincəçay vadisində yerləşən iki kəndin fəth edildiyi qeyd olunsa da, sonrakı yazılı mənbələr bunun tam həqiqəti əks etdirmədiyini, Urartu mixi yazılarında verilən bəzi məlumatların reallığa uyğun olmadığını sübut edib. Əslində, onların hakimiyyəti indiki Ermənistan ərazisində yerləşən bir neçə şəhərdə olub. Başqa bölgələrə yürüşlər etsələr də, həmin torpaqlar uzun müddət Urartu dövlətinin tərkibində qalmayıb.

Vəli Baxşəliyev bildirdi ki, bu faktlar Assuriya mənbələrində də öz əksini tapır. Həmin mənbələrdə urartuların etiunilər və skiflərlə mübarizədə məğlubiyyətlərə uğradığı qeyd edilir. Halbuki Urartu kitabələrində bu barədə məlumat verilmir. Alim vurğuladı ki, İlandağ yazısının mühüm əhəmiyyəti də məhz bundadır.

Yazı elm aləminə çoxdan məlum olsa da, uzun müddət onun dəqiq yeri müəyyən edilə bilməmişdi. Bunun əsas səbəbi ilkin koordinatların düzgün göstərilməməsi olub. Yazı Culfa rayonunun keçmiş Xoşkeşin kəndinin yaxınlığında, İlandağın ətəyində yerləşir. Hazırda həmin ərazidə yaşayış yoxdur və ətraf ərazilər uzun müddət axtarılıb. Son ekspedisiya zamanı aparılan araşdırmalar nəticəsində yazının yeri müəyyənləşdirilib və onun, həqiqətən, mövcud olduğu təsdiq edilib. "Dostumuz tarixçi Hüseyn Cəfərov və digər tədqiqatçılarımızla birlikdə uzun axtarışlardan sonra yazını aşkar etdik", – deyə o bildirib.



Vəli Baxşəliyev qeyd edib ki, bir vaxtlar bəzi tədqiqatçılar belə bir yazının mövcudluğunu inkar edir, onu uydurma hesab edirdilər. Bunun səbəbi sovet dövründə Urartu dövlətinin yanlış olaraq ermənilərlə əlaqələndirilməsi idi. Lakin dünya elmi göstərir ki, urartuların ermənilərlə nə dil, nə də antropoloji baxımdan birbaşa əlaqəsi var.

Alim bildirib ki, Urartu dili qədim Şərq dillərinə daha yaxın olub. Bu xalq bu gün mövcud olmasa da, onlardan qalan maddi mədəniyyət nümunələri Azərbaycanın tarixi irsinin bir hissəsidir və qorunmalıdır. İlandağ yazısının yenidən aşkar edilməsi də bu baxımdan mühüm əhəmiyyət daşıyır və onunla bağlı indiyədək aparılan araşdırmaların əsassız olmadığını göstərir. Urartular qədim dövrdə mövcud olmuş dövlət olub, günümüzə isə onların yazıları, qalaları və digər maddi mədəniyyət nümunələri gəlib çatıb.

Sonda Vəli Baxşəliyev vurğulayıb ki, uzun illərdir, tarixi-mədəniyyət abidələrinin tədqiqi ilə məşğuldur və İlandağ yazısı Naxçıvanın qədimliyini təsdiqləyən ən mühüm tarixi abidələrdən biridir. Onun sözlərinə görə, bu kimi tapıntılar tarix və arxeologiya elmində zamanla formalaşmış bir sıra yanlış nəzəriyyələrin aradan qaldırılmasına, qədim tariximizin daha obyektiv şəkildə öyrənilməsinə mühüm töhfə verir.

✍ **Zəhra VƏLİYEVA**

*Bu il yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev böyük Azərbaycan şairi Xaqani Şirvaninin anadan olmasının 900 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda deyildiyi kimi, "Xaqani Şirvani Azərbaycan ədəbiyyatı və mədəniyyətinin qızıl dövrünün ümumbəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi nəhəng simalardandır". Azərbaycan ədəbiyyatının zənginləşməsində böyük xidmətləri olan sənətkarın obrazı bədii ədəbiyyatımızda həmişə diqqət mərkəzində olmuşdur. Belə əsərlər arasında Naxçıvan ədəbi mühitinin qiymətli nümayəndəsi, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi, şair Asim Yadigarın "Xaqani" poeması da yer alır. Müəllifin 2010-cu ilin yanvar ayından başlayaraq üzərində işlədiyi "Xaqani" poeması 2019-cu ildə tamamlanaraq 2020-ci ildə nəşr edilmişdir. Müəllif ölkə başçısının Sərəncamını və əsərə olan bədii marağı nəzərə alaraq 2026-cı ildə poemanı yenidən nəşr etdirmişdir.*

# Söz mülkünün Şəhriyarı Xaqani Şirvani haqqında poema

## Naxçıvanlı şairin Xaqani Şirvani haqqında poeması nəşr edilib




Əsər proloq, on üç fəsil və epiloqdan ibarətdir. Poemanın hər bir bölməsi, hissəsi böyük ustad Xaqaninin sözlərindən epiqrafla başlayır. Əsərin proloq hissəsində böyük Azərbaycan şairi, "şeiriyyətin bayraqdarı", qəsidə ustadı, söz dühası Xaqaninin ictimai məzmun və humanist səciyyə verilmiş misralarından axan kədər, təəssüf hissləri diqqəti cəlb edir:

*Sözümdən qəm süzülür ağlayan kamanımdır,*
*Özüm də bir kamanam, sızlayan zamanımdır.*
*Pənbə-pənbə ucalan o ağ buludlar ki var,*
*Göy üzünü bürüyən ahımdı, amanımdır...*

Müəllif bu sözlərlə Xaqanini bir üsyankar şair kimi dövrünün, zamanının kədər və qayğı aynası olduğunu ümumiləşdirmişdir. Bu həm də bir şairlə dövranının mübarizəsi, ziddiyyəti, qarşıdurması kimi də maraq oyadır, oxucunun əsərə nüfuzuna zəmin hazırlayan və ilk təəssürat oyadan bir bədii manera rolunu oynayır. Çünki bu böyük ustad öz yaradıcılığında dövranının ictimai-siyasi məzmununu əks etdirməyə qabil olan ilk şeir-sənət dahisi idi. Ədəbi-tarixi şəxsiyyət olaraq Xaqani Şirvani yaradıcılığında təkcə dövrün problemlərini əks etdirməmiş, həm də zülmə boyun əyməyən əzm, irada və zehniyyət nümunəsi olaraq misraları ilə döyüşkənlik və üsyankarlıq nümunəsi göstərmişdir. Müəllif Asim Yadigar proloqun sonuna doğru özünün Xaqani irsinin davamçısı olması ilə qürur duyduğunu ifadə edir, sanki ənənəvi poema janrının tələbi kimi əsərinin yazılma səbəbini göstərir.

Birinci fəsildən başlayaraq on üçüncü fəslə qədər əsər Xaqaninin şəxsiyyəti, istedadı, şairlik qüdrəti, yaşantıları, ömür yolu, tale və qisməti və s. bütövlüklə özündə əhatə etməyə çalışır. İstedadlı şairin doğuluşundan başlamış əmisi Kafiəddin Ömərin onu tərbiyəsi, verdiyi təhsil, şairin Əbül Üla ilə tanışlığı və ona şagirdlik etməsi, Şirvanşahlar sarayına düşməsi, istedadının parlaması, sarayda qarşılaşdığı problemlər, Şirvanşah Mənuçöhr və oğlu Axsitanın şairə olan münasibəti, gördüyü mükafatlar və acılar, həbslərdəki əhvalı, yaşam çırpıntıları, qayğıları, hamısı ümumiləşdirilməyə çalışılmış və şairin çox canlı bir obrazı yaradılmışdır.

Doğrudur, əsərdə oxucunun əvvəlcədən haqqında müəyyən təəssüratı yaranmış söz ustadı Xaqaninin bir xarakter, qüdrətli söz ustadı kimi həyatı və taleyinin təfərrüatları əks olunmayıb. Əlbəttə, bu, müəllif Asim Yadigarın qəlbən sevdiyi, ürəkdən bağlandığı bir şairin şəxsi təxəyyülünün işığında canlandırdığı obrazının yaradılması ilə əlaqədardır. Poemanın canlandırdığı Xaqani böyük söz kəhkəşanında Günəş kimi parlayan, ildırım kimi çaxan, tufan olub dünya ilə, dövran ilə, gedişat ilə cəngi-cədələ çıxan bir söz dühasını, xarakteri, obrazı əks etdirir. Oxucu poemada zülmlə mübarizəyə qalxmış nəhəng bir söz adamının həyatı və taleyi ilə tanış olur. Bu taleyin işığında konkret bir dövr, ictimai-siyasi mühit, ədəbi inkişaf, mədəni vəziyyət təzahürünü tapıb. Xaqaninin söz dühası və nəhəngliyini daha qabarıq təqdim etmək, onun mübarizliyi və qətiyyətini göstərmək üçün müəllif Xaqani kimi söz sənətkarını əzməyə çalışan, onu tez-tez cəzalandıran, ona kədər, acı verən, zülm edən saray mühitini təqdim edir. Buna görə də üçüncü fəsildən başlayaraq zalım və ədalətsiz saray mühiti ilə Xaqaninin qətiyyətli mübarizəsi öz əksini tapır. Xaqani Şirvanşah Mənuçöhrdən, onun oğlu Axsitandan gördüyü zülmü sakitcə qarşılamır, əksinə, bir şairin göstərə biləcəyi və aparacağı mübarizə forması ilə tam qətiyyət və mübarizə nümunəsi ortaya qoyur.

Müəllif Asim Yadigar əsərdə çox sevdiyi və hörmət duyduğu Xaqani Şirvanini idealizə etmir, bəlkə də, daha çox ictimai-ədəbi düşüncədə onun haqqındakı mövcud ziddiyyətli düşüncənin məzmunundan irəli gələrək onu bir şəxsiyyət olaraq izah etməyə, bütün ziddiyyətləri ilə ortaya qoymağa, yanlışı-doğrusu ilə və əlbəttə, yalnışlarını səbəbləri ilə təqdim etməyə çalışır. Müəllif müəyyən məqamda Xaqaninin sonralar nifrət və qəzəb duyduğu saraylara mədhiyyəçilik etməsini onun gənclik ehtirası və şöhrət həvəsi ilə bağlayırsa, əslində, zalım olanın müəyyən vaxt mərhəmətli olduğuna inanması ilə əlaqələndirirsə, sonralar şairin bu mədhiyyəçiliyinin zülmə, zalıma tabe olması, boyun əyməsi ilə əlaqələndirərək şair haqqında gerçək, inandırıcı bir obraz, təəssürat yaratmaq istəyir. "Zəmanə mum eylədi, əydi çox üsyankarı", "Əyilməyən poladı sındırırlar bir anda, Gör nə qədər dik başlar əyildi bu zamanda" kimi misralar, ümumiyyətlə, zaman və şəxsiyyət, şair və ictimai mühit problemini daha çox qabardır. Bu cəhətdən hər iki obyekti tənqid zamanı qarşılıqlı münasibətlərə, real vəziyyətə nəzər salmanın vacibliyini ehtiva etmiş olur.

Bu misralar həm də hər cür ziddiyyətli, mürəkkəb, hətta qəddar ictimai şəraitə və onunla münasibətdə olan insana – şəxsiyyətə obyektiv nəzər salmağı təlqin edir. Poemanın bu tərzi bizi təkcə Xaqani ilə zamanını deyil, ümumiləşdirmə sayəsində Vaqifi və zamanını, Hüseyn Cavid və zamanını, Səməd Vurğun və zamanını və başqa oppozisiyalar daxilində aydın qavrayışa, düzgün ədəbi-ictimai təhlilə dəvət etmiş olur. Bu oppozisiyalar daxilində oxucunu şairinə obyektiv baxmağa dəvət edir. Bu baxımdan, müəllif hər cür çalışır ki, Xaqani haqqında da oxucuda obyektiv, aydın, qərəzsiz təəssürat yaranmış olsun: oxucu dövrü, zamanı da, onun şairini, şəxsiyyətini də qarşılıqlı münasibətdə necə varsa, o cür qavraya bilsin. Bu mənada, poemada ustad Xaqaninin "İstəmirəm adımı çağırsınlar Xaqani, Mən yoxsullar şairi Xəlqaniyəm, Xəlqani" misrası da özünəməxsus dəyişimlə istifadə edilmişdir:

*Deyirəm daha məni çağırmayın Xaqani,*
*Mən yoxsullar şairi Xəlqaniyəm, Xəlqani!*

Poemada taleyin Xaqaniyə qarşı sərtliyi də unudulmayıb. Giley-güzar, şikayət və kədər dolu şeirlərinin təsiri ilə müəllif şair Xaqaninin övladlarının (oğlu və qızının) itkisindən doğan sonsuz ata kədərini də bütün poetik qüvvəti ilə əks etdirib. Əsərdə müəllif xüsusi bədii zərurətlə Xaqani Şirvaninin dövrünün gənc və istedadlı şairi Nizami Gəncəvi və aralarında eşq münasibətləri yaşanmış Xaqanın bacısı İsmətəddinlə görüşlərini ayrıca fəsillər daxilində təqdim etmişdir.

Poemanın epiloqu da maraq doğurur. Məşhur "Şairlər qəbiristanlığı"ndan (Məqbərətüş-şüəaradan) bəhs edən, burada Azərbaycanın onlarla söz dühasının uyuduğunu bildirən poema müəllifi vaxtilə "söz mülkünün şəhriyarı" kimi böyük şöhrət qazanmış Xaqani Şirvaninin də məzarının burada olduğunu və bu müqəddəs məkanda uyuduğunu özünəməxsus poetik həssaslıqla ifadə edir. "O, sözünün önündə diz çökdürdü zamanı, Sözüylə günəş kimi gəzdi bütün cahanı. ...Şeirləri günəştək dünya gəzir, dolanır, Cahan onun sözünün işığına boyanır", – deyə yazan Asim Yadigar bu kimi misraları ilə bir tərəfdən ədəbiyyat tarixində Xaqaninin qazandığı hörmət və etibardan bəhs edir, eyni zamanda özünün Xaqani kimi ustad bir şairə olan sonsuz məhəbbət və ehtiramını ifadə etmiş olur.

Ümumiyyətlə, poema xaqanişünaslıq üçün xüsusi əhəmiyyəti olan bir əsər olaraq dəyərləndirilə bilər. Xaqani haqqında geniş təfərrüata yol verməndən onun sənətinin əsl məziyyəti və qüdrətini poetik ifadəyə çevirən şair Asim Yadigar sözü və şəxsiyyəti ilə zülm və istibdad dolu geniş ictimai qüvvələrə, hakimlərə və hakimiyyətə qarşı üsyankar etirazı və mübarizə ruhu əxz edən qəzəbi ilə döyüş açan mərdanə bir şairin obrazını yaratmışdır. Müəllif o Xaqaninin obrazını yaradır ki, sözü hələ XII əsrdə hər cür zülm və istibdada qarşı, azadlıq əleyhdarlarına qarşı ildırım kimi çaxır, tufan kimi tozanaq qoparır, zülmü, sitəmi, məhrumiyyət və məhkumiyyəti ortadan qaldırmağa cəhd edirdi.

Bu əsər bütün oxucu kütləsinin maraq dairəsinə uyğun yazılmışdır. Beləliklə, poema Xaqani kimi söz ustadına həsr olunmuş bədii əsərlər arasında bütün ədəbi-bədii məziyyətlərinə görə ləyaqətlə təmsil olunur.

**Ramiz QASIMOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya elmləri doktoru, dosent***

# Akademik İsmayıl Hacıyevin biblioqrafiyası nəşr olunub




Görkəmli tarixçi-alim, tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyevin 75 illik yubileyi münasibətilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası tərəfindən "Akademik İsmayıl Hacıyev: biblioqrafiya" adlı biblioqrafik göstərici hazırlanıb.

AMEA Naxçıvan Bölməsinin mətbuat xidmətindən bildirilib ki, AMEA-nın Rəyasət Heyətinin müvafiq qərarı ilə "Görkəmli elm xadimləri" seriyası altında tərtib olunan biblioqrafiyanın elmi məsləhətçisi və ön sözünün müəllifi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, elmi redaktoru, texnika elmləri doktoru, dosent Hüseyn Hüseynov, tərtibçisi baş biblioqraf Türkan Vahidova, redaktorları isə filologiya üzrə fəlsəfə doktoru Aytən Əliyeva və Nərgiz Novruzovadır.

Biblioqrafiyanın əvvəlində Prezident İlham Əliyevin akademikin "Əməkdar elm xadimi" fəxri adı, "Şöhrət" ordeni, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" və "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalları ilə təltif edilməsi haqqında sərəncamları, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, AMEA Rəyasət Heyətinin müvafiq sərəncam və qərarları yer alıb.

"Elm" nəşriyyatında nəfis tərtibatda işıq üzü görən nəşrdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəylinin "Elmin və şəxsiyyətin vəhdəti" başlıqlı ön söz xarakterli məqaləsi, AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərli və tarix elmləri doktoru, dosent Emin Şıxəliyevin "Elmi-pedaqoji fəaliyyətin mənalı illəri" adlı yubiley yazısı yer alıb.

Biblioqrafik göstərici "Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri", "Görkəmli elm və mədəniyyət xadimləri İsmayıl Hacıyev haqqında", "Əsərlərinin biblioqrafiyası", "Azərbaycan Respublikası Milli Məclisinin iclas və sessiyalarda çıxışları", "Redaktoru, rəyçisi və elmi məsləhətçisi olduğu nəşrlər", "Elmi məsləhətçisi, elmi rəhbəri və opponent olduğu dissertasiyalar", "Həyatı və yaradıcılığı, elmi-ictimai fəaliyyəti haqqında" adlı 7 bölmədən ibarətdir.

Nəşr akademik İsmayıl Hacıyevin həyatını, elmi-pedaqoji və ictimai fəaliyyətini, əsərlərinin biblioqrafiyasını, həmçinin haqqında yazılmış mənbələri əhatə edir.

Bundan əlavə, nəşrdə akademik İsmayıl Hacıyevin haqqında yazılan oçerklər, 1990-2025-ci illərdə nəşr olunmuş elmi əsərlərinin – monoqrafiyaları, kitabları, o cümlədən həyatı, elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətinin əsas tarixləri haqqında məlumatlar Azərbaycan dili ilə yanaşı, ingilis və rus dillərində də verilib.

Biblioqrafiyanın sonunda verilən "Soraq-axtarış aparatı" isə alimin əsərləri, müştərək müəlliflər və haqqında yazan müəlliflər üzrə axtarışı oxucular üçün asanlaşdırır.

Akademik İsmayıl Hacıyev Azərbaycan tarixinin aktual problemlərinə dair 600-ə yaxın elmi əsərin, o cümlədən 42 kitabın, 15 monoqrafiyanın, 300-dən artıq elmi-kütləvi məqalənin müəllifidir. Onun rəhbərliyi ilə 21 tədqiqatçı fəlsəfə doktoru, 10 nəfər elmlər doktoru dissertasiyası müdafiə edib. Görkəmli alim 30-dan çox ölkədə keçirilən 60-a yaxın beynəlxalq sammit, qurultay, konqres, konfrans və simpoziumlarda, elmi tədbirlərdə məruzələrlə Azərbaycan tarix elmini uğurla təmsil edib. Bütün bunları nəzərə alaraq biblioqrafiya tarixçilər, bu sahə üzrə elmi-tədqiqat işi aparan alim və mütəxəssislər, ali məktəb müəllimləri və tələbələr, eləcə də geniş oxucu kütləsi üçün etibarlı və zəngin mənbədir.

# Yeni laboratoriyalar üçün avadanlıqların gətirilməsinə başlanılıb



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə ***bp*** şirkəti arasında 10 aprel 2026-cı il tarixdə imzalanmış əməkdaşlıq sazişi çərçivəsində təhsil müəssisələrində yaradılacaq yeni laboratoriya və emalatxanalar üçün avadanlıqların muxtar respublikaya gətirilməsinə başlanılıb.

Sazişə əsasən Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində 2 yeni istehsalat emalatxanası, Heydər Əliyev adına tam orta məktəbdə və Naxçıvan Qızlar Liseyində isə müasir kimya laboratoriyaları yaradılacaq. Yaxın günlərdə təhsil müəssisələrində avadanlıqların quraşdırılma işlərinə start veriləcək. Fənn laboratoriyalarının tədris ilinin sonuna qədər hazır olması planlaşdırılır. Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində 2 yeni istehsalat emalatxanasının sentyabr ayında hazır olub istifadəyə verilməsi nəzərdə tutulur.

Beləliklə, əməkdaşlıq sazişinə uyğun olaraq laboratoriya və emalatxanalar yeni tədris ilinə tam hazır vəziyyətdə müəssisələrin istifadəsinə veriləcək.

Saziş çərçivəsində, həmçinin bp tərəfindən muxtar respublikanın ümumi təhsil müəssisələrində tədris aparan 30 nəfər perspektivli və metodoloji dəstəyə ehtiyacı olan ingilis dili müəlliminin ixtisasartırma və təlim proqramlarına cəlbi, istedadlı şagirdlərin (riyaziyyat, informatika, fizika və kimya fənləri üzrə) aşkarlanması, onların yerli və beynəlxalq olimpiadalara hazırlığının dəstəklənməsi də həyata keçirilir.

# Naxçıvan şəhərində yerləşən "Xan diki" kəhrizi bərpa olunur



Azərbaycanın su təsərrüfatı tarixində kəhrizlər xüsusi yer tutur. Əsrlərboyu istifadə olunan bu mühəndis qurğuları yeraltı suların toplanaraq təbii axınla əhali və təsərrüfat sahələrinə çatdırılmasını təmin edib. Xüsusilə Naxçıvan Muxtar Respublikası ərazisində kəhrizlər həm içməli su təminatında, həm də kənd təsərrüfatının inkişafında mühüm rol oynayıb.

Hazırda respublikamızda mövcud olan kəhrizlərin yenidən bərpası və istismar vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Həmin tədbirlərə uyğun olaraq Naxçıvan şəhərində yerləşən "Xan diki" kəhrizi də bərpa olunur.

Biz də görülən işlərlə yerində tanış olmaq məqsədilə "Xan diki" kəhrizinə baş çəkdik. Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin mühəndisi Anar Məmmədov bizə bu haqda məlumat verərək bildirdi ki, kəhrizin 30 metrlik hissəsində lil, çöküntü və ağac köklərinin təmizlənməsi işləri həyata keçirilib. Bununla yanaşı, su axınının daha səmərəli təmin olunması və gələcəkdə kəhrizin istismar imkanlarının genişləndirilməsi məqsədilə hər biri 4 metr uzunluğunda olan 2 ədəd yeni quyu qazılıb.

Mühəndis qeyd etdi ki, görülən işlər çərçivəsində kəhrizin daxili hissəsində mövcud maneələrin aradan qaldırılması, uçqun və dolmaların təmizlənməsi, suyun fasiləsiz və normal axınının təmin olunması istiqamətində mühüm tədbirlər görülür. Hazırda təmizlənməsi nəzərdə tutulan hissə 220 metrə yaxın ərazini əhatə edir.

Anar Məmmədovun sözlərinə görə, "Xan diki" kəhrizinin, təxminən, 350 ilə yaxın yaşı var və sonuncu dəfə 2015-ci ildə əsaslı təmir olunub. Buna baxmayaraq, ötən illər ərzində kəhrizin bəzi hissələrində problemlər yaranmağa başlayıb, saybəndlərdə uçmalar müşahidə olunub. Bu səbəbdən kəhriz yeni saybəndlərlə təmin olunaraq yenidən qapadılıb.

Kəhrizin ümumi uzunluğu 850 metrdir və üzərində 52 quyu yerləşir. Baş quyusunun dərinliyi isə 16 metr təşkil edir. Hazırda ərazidə təmir-bərpa və təmizləmə işləri ardıcıl şəkildə davam etdirilir, kəhrizin texniki



vəziyyəti nəzarətdə saxlanılır.

Mühəndis onu da vurğuladı ki, işlərə başlanılan zaman kəhrizdə saniyədə 0,5 litr su axını müşahidə olunurdusa, hazırda bu göstərici 1,5 litr saniyəyə çatdırılıb. Görülən tədbirlərin gələcəkdə kəhrizin suötürmə qabiliyyətinin daha da artırılmasına və uzunmüddətli istismarına mühüm töhfə verəcəyi bildirilir.

Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsində cari ildə görülən işlərlə bağlı məlumat verən mühəndis bildirdi ki, hazırda 389 kəhriz qeydiyyatdadır. Bu kəhrizlərin istismar vəziyyətinin yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq təmir-bərpa və texniki xidmət işləri həyata keçirilir.

Həyata keçirilən tədbirlər kəhrizlərin suvermə qabiliyyətinin artırılmasında, su axınının fasiləsiz təmin edilməsində və onların daha dayanıqlı şəkildə istismar olunmasında mühüm rol oynayır.

Müsahibimiz sonda vurğuladı ki, kəhrizlərin istismarı yalnız bərpa ilə məhdudlaşmır. Onların davamlı işlək vəziyyətdə saxlanılması üçün mütəmadi texniki xidmət, təmizləmə və monitorinq tədbirləri həyata keçirilir. Bu isə həm suyun keyfiyyətinin qorunmasına, həm də sistemin uzunömürlü olmasına kömək edir. Eyni zamanda kəhrizlər yalnız su mənbəyi deyil, həm də mühüm tarixi-mədəni irs nümunəsidir. Onların qorunması və gələcək nəsillərə ötürülməsi xüsusi əhəmiyyət daşıyır. Bu səbəbdən aparılan işlər həm texniki, həm də mədəni yanaşmanı özündə birləşdirir. Nəticə etibarilə kəhrizlərin qorunması, bərpası və səmərəli istifadəsi regionda su təhlükəsizliyinin təmin olunmasına, ekoloji tarazlığın qorunmasına və əhalinin dayanıqlı su təminatının gücləndirilməsinə mühüm töhfə verir.

✍ **Zəhra VƏLİYEVA**



# Mətbəximizin zərif ətri: qızılgül

***Yaz aylarının gəlişi ilə təbiət öz möcüzəvi rənglərini torpağa naxış kimi vurmağa başlayır. Bu fəsil mənə hər zaman dadı damağımızda qalan meyvələri xatırlatsa da, bir tərəfdən də gözəl ətirli, zərif və incə görünüşlü qızılgülü gözlərim önünə gətirir. Parlaq, zəngin və özünəməxsus olan Azərbaycan mətbəxində bu zərif çiçəyin xüsusi bir yeri var. Səxavətli torpağımızın bizə bəxş etdiyi nemətləri həqiqi kulinariya şedevrlərinə çevirməyi bacaran analarımız, nənələrimiz nəsildən-nəslə ötürülən böyük bir mirası bu günə qədər yaşadırlar. Səhərin o çağı, Günəş doğmadan əvvəl, hələ üstünün şehini itirməmiş və Günəş şüaları ləçəklərə toxunub onları bərkitməmiş böyük bir əməklə, zərif incəliklə toplanan qızılgül ləçəklərinin sehrli bir sirri var. Bu incə çiçək, sadəcə, vizual gözəlliyi və füsunkar ətri ilə kifayətlənmir, o həm də süfrələrimizin tacı, min bir dərdin dərmanı kimi tanınır.***









Qədim Naxçıvanın hər qarışında bitən digər nemətlər kimi qızılgülün də insan sağlamlığına faydalarını saymaqla bitmir. Hələ əsrlər öncə böyük təbib İbn Sina xəstələrinə bu ləçəklərdən məlhəmlər və təbii dərman dəmləmələri tövsiyə edərdi. Müasir tibb də sübut edir ki, qızılgülün ləçəklərində bol miqdarda C, B1, PP, D, E, K vitaminləri, üzvi turşular var. Nənələrimizin "Düz yeddi il qalan gül mürəbbəsi dərmana çevrilir" kəlamı da məhz bu elmi həqiqətlərə söykənir. Bu möcüzəvi təam mədə yaralarını sağaldır, həzm sistemini tənzimləyir, boğaz iltihabına qarşı təbii antiseptik rolunu oynayır, eyni zamanda ürək əzələsini möhkəmləndirib damar spazmlarını azaldır. Gərgin iş rejimində çalışanlar üçün isə o, mükəmməl bir sakitləşdirici vasitədir.

Tanrının bizə bəxş etdiyi bu ehsanı zəhmətlə yoğurub ərsəyə gətirənlərdən biri də Şərur rayon sakini Müqabil Zamanovdur. İllər öncə kiçik bir ailə təsərrüfatı quran Müqabil kişi artıq 10 ilə yaxındır ki, rayonda gülçülüyün inkişafına öz töhfəsini verir və bölgədəki digər təsərrüfat sahiblərinə də ilham qaynağı olur. Şərur torpaqlarının son dərəcə münbit olduğunu deyən təsərrüfatçı rayonun Çərçiboğan kəndində bir hektara yaxın sahədə əkdiyi qızılgül kollarından indi bol məhsul götürür. O, topladığı bu şəfalı ləçəklərdən təkcə mürəbbə deyil, həm də xalis gülab, gül şirəsi və gül arağı hazırlayır.

Əlbəttə, hər qızılgüldən mürəbbə və ya gülab olmaz. Bunun üçün Şamaxı, Zaqatala, Abşeron, eləcə də doğma Naxçıvan bağlarında yetişən xüsusi ətirli, tünd-çəhrayı güllər seçilməlidir. Usta təsərrüfatçının bizimlə bölüşdüyü hazırlama sirrinə görə, ləçəklər mütləq yağışsız havada, axşamın sərinində və ya sübh tezdən yığılmalıdır. Söhbətimizə zəhmətkeş xanımlardan olan Mehriban xala qoşulur. O bizə gül mürəbbəsinin və gülqəndin hazırlanmasından danışır.

Gül toplandıqdan sonra təmizlənir, mürəbbəyə acılıq verməsin deyə ləçəklərin altındakı ağ hissələr tək-tək kəsilir, soyuq su ilə yuyulub qurumağa qoyulur. Daha sonra yarım kiloqram gül ləçəyinin üzərinə beş stəkan qaynar su tökülərək dəmlənməyə qoyulur. Gül öz rəngini və ətrini suya verdikdən sonra həmin su süzülüb böyük qazanda qaynadılır və ləçəklər yenidən içərisinə əlavə edilərək bir-iki buğum bişirilir. Bu sudan yarım stəkan götürülüb kənara qoyulur, qazandakı qarışığın üzərinə isə beş kiloqram şəkər tozu əlavə edilərək vam odda bişirilməyə davam edir. Mürəbbə hazır olana yaxın əvvəlcədən ayırdığımız yarım stəkan gül suyunun içinə yarım çay qaşığı limon duzu və ya limon şirəsi qatılaraq qazana tökülür, məhz bundan sonra mürəbbənin rəngi parıldayır və gözoxşayan çəhrayı bir rəng alır.

Bu ləçəklərdən həm də xüsusi gülqənd (şəkərlə ovulmuş gül) və kompotlar hazırlayırlar. Ondan alınan qızılgül yağı isə dərini cavanlaşdıran, hüceyrələri bərpa edən ən güclü təbii vasitə sayılır. Bu gün də qızılgül mürəbbəsi yanında təzə kərə yağı və isti təndir lavaşı yeyiləndə dadı insanın damağından getmir. Doğma yurdumuzun bu gözəl nemətlərini qorumaq, çoxaltmaq və gələcək nəsillərə ötürmək həm özümüzə, həm də zəngin mədəniyyətimizə edə biləcəyimiz ən böyük yaxşılıqdır. Süfrələriniz hər zaman qızılgül ətri qədər təravətli, ömrünüz bu zərif çiçək qədər gözəl olsun!

✍ **Səmayə RƏSULOVA**

# Naxçıvanın unudulmuş izlərini yenidən canlandıran təşəbbüs





***Bəzən elə şəkillər olur ki, tək bir anı yox, bütöv bir dövrü danışdırır. Unudulmuş küçələri, artıq yerində olmayan tikililəri, illərin toz basdığı xatirələri yenidən gün işığına çıxarır. Naxçıvanın keçmişinə aid fotoları sosial şəbəkələrdə paylaşaraq böyük maraq yaradan Yunis Xəlilovun təşəbbüsü də məhz belə bir missiyanı daşıyır: keçmişin izlərini bu günün yaddaşında yaşatmaq.***

Hər şey sosial şəbəkədə paylaşılan bir şəkillə başlayıb. Yunis Xəlilovun sözlərinə görə, "Facebook" hesabı kifayət qədər geniş auditoriyaya malikdir və son üç ay ərzində paylaşımları 5 milyondan çox baxış toplayıb. İlk paylaşdığı foto isə Naxçıvan sakinlərinin yaddaşında xüsusi yeri olan "Mamed əminin çayçısı"nın görüntüsü olub. Vaxtilə Hüseyn Cavid məqbərəsinin yaxınlığında, Bəhruz Kəngərlinin heykəli yerləşən ərazidə fəaliyyət göstərən, 1986-cı ildə tikilmiş bu məkan indi mövcud deyil.

Elə həmin foto da böyük maraqla qarşılanıb. Qısa müddətdə 140 min baxış toplayıb. Ardınca paylaşdığı digər fotolar da eyni marağı doğurub və bu onu işi daha sistemli şəkildə davam etdirməyə həvəsləndirib.

Beləliklə, o paylaşımlarını iki istiqamətdə formalaşdırıb: uzaq keçmişə aid – XX əsrin əvvəllərini əks etdirən fotolar və yaxın keçmişi, xüsusilə 1990-cı illərdən sonrakı dövrü canlandıran şəkillər.

Bu fərqlilik auditoriyada da özünü göstərib. Gənclər yaxın keçmişin görüntülərinə heyrətlə baxır, yaşlı nəslin nümayəndələri isə öz gənclik illərini həmin fotolarda yenidən yaşayır, xatirələrini bölüşürlər. Paylaşımların yaratdığı rezonans zamanla gözlənilməz qapılar açıb.

Naxçıvan şəhərindən və bölgələrdən insanlar Yunis Xəlilovu evlərinə dəvət etməyə başlayıblar. Ona şəxsi fotoalbomlarını təqdim edib, illərlə qoruyub saxladıqları nadir materialları bölüşüblər. Artıq bu günə qədər 7-8 şəxsi albom toplanıb və onların böyük hissəsində indiyədək ictimaiyyətə təqdim olunmamış fotolar yer alır.

Bu maraq təkcə ölkə daxilində yox, xaricdə yaşayan naxçıvanlılar arasında da böyük əks-səda doğurub. Ona yüzlərlə mesaj gəlir. İnsanlar hər gün keçdiyi küçələrdə, məhəllələrdə yaşadıqlarını, həmin yollarla məktəbə getdiklərini, o yerlərin onların uşaqlıq xatirələrinin ayrılmaz hissəsi olduğunu yazırlar.

Yunis müəllimin sözlərinə görə təşəbbüsün arxasında ciddi arxiv işi də dayanır. O, atası Fərman Xəlilovun fəaliyyət dövründən qalan lent materiallarını hazırlayıb, oradan şəkillər çıxarıb. Bununla yanaşı, Hüseyn Cavidin evmuzeyinin fondundan, müxtəlif arxivlərdən, Naxçıvan Dövlət Milli Dram Teatrına və digər tarixi məkanlara aid fotolar əldə edərək paylaşmağa başlayıb.

Onun sözlərinə görə, bəzən onu tanımayan insanlar belə bu işə dəstək vermək üçün qapılarını açıblar. Hətta Ordubaddan 88 yaşlı bir sakinin "Bizdə də keçmişi əks etdirən albom var, gəl apar" çağırışı bu marağın nə qədər səmimi olduğunu göstərir.

Sonradan layihəyə ziyalılar, memarlar, rejissorlar da qoşulublar. Azərbaycan Respublikasının Əməkdar memarı Məmməd İbrahimov tərəfindən təqdim olunan materiallar xüsusilə diqqətəlayiqdir. Bir zamanlar Naxçıvan şəhərinin baş memarı olmuş memarın təqdim etdiyi eskizlər, qədim abidə komplekslərinə dair məlumatlar və Şüşəli bazar kimi tarixi məkanların təsvirləri bu arxivə yeni nəfəs verib.

Naxçıvan Film Fondu ilə əməkdaşlıq, Dövlət Arxiv İdarəsinin dəstəyi isə görülən işin miqyasını daha da genişləndirib. Hazırda 900-dən çox foto və yüzə yaxın videomaterial toplanıb.

Bu təşəbbüs getdikcə fərdi maraq çərçivəsindən çıxaraq kollektiv işə çevrilib. Yunis Xəlilov qeyri-rəsmi komanda formalaşdıraraq işi daha peşəkar şəkildə təşkil edib. Komanda kəndlərdə və şəhərin müxtəlif yerlərində yaşlı nəslin nümayəndələri ilə müsahibələr aparır, həmin söhbətləri yazıya köçürür, fotoalbomları toplayır, köhnə şəkilləri bərpa edib rəngləndirir, videomaterialları arxivləşdirir.

Bu gün bu işə Naxçıvandan, Azərbaycanın digər bölgələrindən, eləcə də xaricdə yaşayan həmvətənlərdən böyük dəstək gəlir.

Müəllim və hüquqşünas kimi fəaliyyət göstərən Yunis Xəlilov üçün bu iş peşədən çox ürəkdən gələn bir hobbidir. O bunu keçmişlə gələcək arasında qurulan virtual körpü kimi qiymətləndirir. Gələcək planlar isə kifayət qədər iddialıdır.

Komanda üçün əsas məqsədlərdən biri Naxçıvanın virtual xəritə saytının yaradılmasıdır. Burada müxtəlif illərə uyğun olaraq şəhərin xəritəsi təqdim olunacaq, tarixi məkanlar, həmin yerlərlə bağlı foto və videolar, eləcə də müsahibələrin linkləri yerləşdiriləcək.

Bundan başqa, toplanan materiallardan ibarət sərginin təşkili və köhnə ilə yeninin müqayisəli şəkildə təqdim olunacağı kreativ fotoalbomun hazırlanması da planlaşdırılır.

Maraqlıdır ki, müəlliflik məsələsi onun üçün əsas deyil. Bəzən şəkillərin başqa səhifələrdə onun adı göstərilmədən paylaşılması ilə qarşılaşsa da, buna xüsusi önəm vermir. Çünki onun əsas məqsədi bu materialların mümkün qədər geniş auditoriyaya çatması, Naxçıvanın keçmişinin daha çox insan tərəfindən tanınmasıdır.

Yunis Xəlilovun sözləri ilə desək, hələ paylaşılmamış, böyük maraq doğuracaq çoxlu foto və videomateriallar var.

Deməli, Naxçıvanın yaddaş kitabının hələ açılmamış səhifələri çoxdur. Və görünür, həmin səhifələri bir-bir vərəqləmək qarşıdakı günlərdə də böyük maraqla davam edəcək.

# Sükutun hekayəti



***Gecə yarıdan keçir... Ordubadın qədim küçələrinə hakim kəsilən o dərin, sirli sakitliyin içində yalnız uzaqlardan gələn küləyin pıçıltısı eşidilir. Bu külək şəhərin dar döngələrini gəzib gəlir və nəhayət, əsrlərin yorğunluğunu daşıyan hamamın pəncərələrindən içəri süzülür. İndi bura səssizlik məbədidir. Amma buna baxmayaraq, o tarixin, yaşanmışlıqların və divarların bir-birinə pıçıldadığı minlərlə hekayənin cəmidir. Artıq bura əhaliyə xidmət etmək üçün qapılarını açmır, ocaqxanadakı o nəhəng alovlar çoxdan sönüb. Amma bu qədim divarlar hələ də bir-biri ilə ruhən söhbət edir, keçmişin o səs-küylü, qaynar günlərini xatırlayırlar.***

Girişdəki o zərif, bişmiş kərpiclərdən hörülmüş şimal divarı, vüqarla qonşusu olan şərq divarına tərəf boylanıb ah çəkərək dillənir: "Eşidirsənmi? Bu gecə də o Qarahovuz çeşməsinin səsi gəlir qulağıma. Neçə əsrdir ki, o büllur su bizim saxsı damarlarımızdan şövqlə axıb keçərdi. Bizim içimiz canlanardı, divarlarımız o suyun təmizliyi ilə nəfəs alardı. İndi o borular sükuta qərq olub, amma mən hələ də o saflığı, o şırıltını hər kərpicimdə hiss edirəm. Mən bilirəm ki, biz hələ də Ordubadın paklıq yaddaşıyıq, onun təmizlik andıyıq".

Cənub divarı, bir metrlik qalın qəlbi ilə sarsılmaz bir sükunətlə ona cavab verir: "Haqlısan, əziz qonşum. Mən də xatırlayıram... Mənim qoynumda yuyunma zalının və otaqların altından keçən o isti hava kanalları var ha, onlar bir zamanlar mənə necə bir can verirdi. Ocaqxanada yanan o alovun hərarəti bütün tərəflərimizə yayılardı. İnsanlar bura daxil olanda o istilik onları bir ana ağuşu kimi qucaqlayardı. İndi o ocaqxana sönüb, xəzinədən su götürmək üçün açılan o kiçik gözlüklər artıq tarixin qaranlıq, amma şərəfli keçmişinə baxır. Amma ustadın bizi tikərkən istifadə etdiyi hər bir kərpic hələ də o isti günlərin xatirəsini içində gizləyir. Biz soyumuşuq, amma ölməmişik".

Zalların mərkəzində ucalan əzəmətli sütunlar bu söhbətə qəmli bir ehtişamla qoşulur: "Bizim çiyinlərimizdə saxladığımız o möhtəşəm tağtavanlara baxın. Biz bütöv bir xalqın memarlıq zövqünü, Şərq dünyasının sənət ruhunu bu günə gətirmişik. İndi bura bir muzey sakitliyinə bürünüb, amma hər bir ziyarətçi gəlib bu tağların altında dayananda biz onlara babalarımızın ucalığından danışırıq. XX əsrdə dəfələrlə yaralandıq, aşındıq, təmir olunduq. Amma gör, bu abadlıq və bərpa işləri bizə necə bir ruh verdi. Bizi yenidən öz əzəli görkəmimizə qaytardılar, üstümüzdən yüz illərin yorğunluğunu silib atdılar elə bil".

Dəhlizdən gələn sərin bir mehlə birlikdə girişdəki o firuzəyi kaşılar və zərif naxışlar bir-birinə pıçıldayır: "Bəlkə də, artıq kimsə bizdən içəri keçib o geniş çayxanada kəklikotu ətri ilə dərdləşmir, bəlkə, o geniş zallar artıq insan səsi ilə dolmur. Amma hər bir yolçu bizə baxanda Ordubadın sarsılmazlığını görür. Bizim o bir metrlik divarlarımız bu şəhərin xarakteri kimidir, həm möhkəm, həm vüqarlı, həm də çox dərin. Biz artıq xidmət etməsək də, hər bir daşımızla bu diyarın ən böyük şahidiyik".



Gecə yarıdan keçir, Ordubadın sərin küləyi hamamın pəncərələrindən son dəfə süzülərək bu qədim divarların söhbətini gələcəyə, sabahın ilk şəfəqlərinə daşıyır. Artıq su axmır, ocaq atəşi yanmır, amma XVIII-XIX əsrlərdən bəri süzülüb gələn o tarixin nəfəsi bu divarlar arasında əbədi olaraq yaşayacaq. Onlar ruhun və daşın sonsuz eşqinin ən uca sübutu kimi Cümə məscidinin yaxınlığında əbədi keşik çəkməkdə davam edəcəklər.

Elnurə CƏFƏROVA

# Naxçıvan kikboksçuları beynəlxalq arenanı yenidən fəth etdi



Azərbaycan idmançıları beynəlxalq arenalarda növbəti dəfə öz sözlərini deməyi bacarıblar. Budəfəki möhtəşəm qələbə xəbəri Türkiyənin Antalya şəhərindən gəlib. Şəhərdə təşkil olunan 11-ci "Turkish Open WAKO World Cup" kikboksinq turnirində ölkəmizi təmsil edən Naxçıvanın "Ləvənt Bulut" döyüş klubunun üzvləri yeni uğura imza atıblar. 43 ölkədən 3000-ə yaxın idmançının qatıldığı bu nüfuzlu dünya kubokunda idmançılarımız uca bayrağımızı dalğalandıraraq Vətənə qızıl və bürünc medallarla geri dönüblər.

Gənclər arasında K1 stili üzrə 71 kq çəki dərəcəsində mübarizə aparan Uğur Əliyev yarışa dörddəbir final mərhələsindən qoşulub. İki Türkiyə təmsilçisini ardıcıllıqla məğlub edərək finala yüksələn idmançımız həlledici qarşılaşmada Almaniya idmançısı Filipp Slabçenkonu da üstələyərək dünya kubokunun və qızıl medalın sahibi olub. Komandanın digər üzvü Nurlan Rzayev uşaqların yarışında "point fighting" növündə bürünc medala layiq görülüb.

Yarışın yekunları və qazanılan uğurlarla bağlı yarış heyəti təəssüratlarını bizimlə bölüşdü.

Dünya kubokunun qalibi olan Uğur Əliyev rinqə çıxdığı anlarda keçirdiyi həyəcanı və qələbə anının sevincini bu cür ifadə etdi: "Hələ də inana bilmirəm ki, bu ağır turnirin qalibiyəm. Dörddəbir finalda və yarımfinalda Türkiyə idmançıları ilə qarşılaşanda tribunada böyük azarkeş təzyiqi var idi. Hamı rəqiblərimi dəstəkləyirdi. Amma mən o səs-küyün içində yalnız məşqçim Etibar müəllimin səsini eşidirdim. Onun kənardan verdiyi hər tapşırıq, hər xəbərdarlıq mənə yol göstərdi. Final döyüşündən əvvəl isə Almaniya təmsilçisi Filipp Slabçenkonun döyüşlərini izləmişdik. Rinqə çıxanda öz-özümə dedim ki, bura qədər gəlmişəmsə, gümüş medal mənə bəs etməz, Naxçıvana yalnız qızıl yaraşır. Hakimin mənim əlimi yuxarı qaldırdığı və Azərbaycanın Dövlət Himninin səsləndirildiyi o an... O an çəkdiyim bütün əziyyətlərə, o ağır məşqlərə dəyərdi. Bu kuboku mənə inanan  hər kəsə həsr edirəm".

Komandanın ən gənc və gələcəyinə böyük ümidlər bəslənən üzvü, bürünc medal mükafatçısı Nurlan Rzayev isə böyük idmançı iddialılığı ilə öz təəssüratlarını danışdı: "Mənim üçün bu turnir çox böyük təcrübə oldu. İlk dəfə idi ki, bu qədər çox idmançının, xarici ölkələrin qatıldığı bir yarışda iştirak edirdim. "Point fighting" növündə saniyələr çox vacibdir, gərək çox sürətli olasan və rəqibdən tez xal alasan. Rinqdə də qorxmadım, əlimdən gələni etdim. Yarımfinalda bir az bəxtim gətirmədi, lakin bürünc medal qazanmaq da məni çox sevindirdi. Amma söz verirəm ki, növbəti yarışlarda daha çox çalışacağam və Uğur kimi mən də qızıl medal qazanacağam".

Əldə olunan bu qələbənin pərdəarxası qəhrəmanı, baş məşqçi Etibar Qəribov idmançılarının qazandığı bu uğuru aylarla davam edən yorucu məşqlərin, nizam-intizamın nəticəsi kimi qiymətləndirir: "Antalyaya yollanarkən qarşımıza tək bir məqsəd qoymuşduq. Vətənə medalsız, kuboksuz qayıtmamaq. Amma etiraf etməliyəm ki, yarışın miqyası və rəqiblərin səviyyəsi gözlədiyimizdən də yüksək idi. 3000-ə yaxın idmançının qatıldığı turnirdə psixoloji gərginlik pik həddə olur. Uşaqlar rinqə çıxanda mən onlardan tək bir şey tələb etdim: məşqlərdə öyrəndikləri heç bir fəndi unutmamaq. Uğur Əliyev iki türkiyəli rəqibini öz evlərində məğlub etdi, bu, böyük ürək tələb edir. Finalda isə alman idmançısının heç bir hücumuna imkan vermədi. İdmançılarımız bizi yanıltmadı. Sürətli və taktiki döyüş növündə bürünc medal qazanmaq bu yaşda böyük nailiyyətdir. Bu uğur hələ başlanğıcdır, qarşıda bizi daha böyük hədəflər, Avropa və dünya çempionatları gözləyir".

Beynəlxalq arenada qazanılan bu uğur Naxçıvanda son illərdə idmana  göstərilən diqqətin, sistemli məşqlərin bəhrəsidir. Rəqiblərin kimliyindən, yarışın keçirildiyi məkanın çətinliyindən asılı olmayaraq, Azərbaycan Bayrağını beynəlxalq arenada ucaldan bu gənclər hər birimizə böyük qürur hissi yaşatdılar. Naxçıvanlı idmançıların dünya kubokunun sahibi kimi Vətənə dönməsi muxtar respublikada idman sahəsində gələcəkdə qazanılacaq daha böyük uğurların təminatıdır.

✍ **Elnurə CƏFƏROVA**

# Dünyanın nüfuzlu universitetlərində Kibertəhlükəsizlik ixtisası üzrə təhsil almaq istəyirəm

Ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə keçirilən buraxılış imtahanında maksimum 300 bal toplayaraq ölkə üzrə ən yüksək nəticə göstərən şagirdlərdən biri də Naxçıvan şəhərində yerləşən M.C.Cəfərov adına 14 nömrəli tam orta məktəbin şagirdi Əli Cəfərli olub. Əldə etdiyi nəticə ilə həm məktəbinin, həm də Naxçıvanın qürur mənbəyinə çevrilən gənc, uğurunun sirlərini və gələcək planlarını "Şərq qapısı" ilə bölüşüb.

Əli Cəfərli bildirdi ki, təhsil aldığı müddətdə yerli və beynəlxalq olimpiadalarda uğurlu nəticələr əldə edib. O, Lütfi Zadə adına Məntiq Olimpiadasında qızıl medal, SASMO və AMO olimpiadalarında qızıl və gümüş medallar, Kenquru Beynəlxalq Riyaziyyat Olimpiadasında isə bürünc medal qazanıb. Dərslərdən əlavə mütailə ilə məşğul olduğunu, xüsusilə detektiv janrında əsərlər oxumağı sevdiyini bildirdi. Əli proqramlaşdırma sahəsinə maraq göstərdiyini və Python proqramlaşdırma dilini öyrəndiyini qeyd edib. O, asudə vaxtlarında basketbol məşqlərində də iştirak edir.

Maksimum nəticə əldə etmək üçün ilboyu məqsədyönlü şəkildə hazırlaşdığını vurğulayan şagird bildirib ki, müəllimlərin verdiyi tapşırıqları vaxtında yerinə yetirib və mövzuları dərindən mənimsəməyə çalışıb. Onun buraxılış imtahanında əsas hədəfi maksimum nəticə göstərmək olub. İmtahandan sonra qapalı tipli sualların cavablarını yoxladığını və onların hamısının düzgünlüyünə əmin olduğunu bildirən şagird açıq tipli suallarla bağlı müəyyən tərəddüdlərinin qaldığını söyləyib. Nəticələr açıqlananda bütün fənlər üzrə maksimum nəticə əldə etdiyini görməsinin ona böyük sevinc yaşatdığını vurğulayan Əli ilboyu çəkdiyi zəhmətin bəhrəsini görməkdən qürur duyduğunu bildirib.



Gələcək planlarından danışan Əli Cəfərli dünya üzrə nüfuzlu universitetlərdə Kibertəhlükəsizlik ixtisası üzrə təhsil almaq istədiyini bildirib. O, ali təhsilini başa vurduqdan sonra həmin sahədə peşəkar fəaliyyət göstərməyi və əldə etdiyi biliklərlə ölkəsinə fayda verməyi qarşısına məqsəd qoyduğunu deyib.

Əlinin anası Səadət Nuriyeva da oğlunun uğuru ilə bağlı fikirlərini bölüşüb. O bildirib ki, Əlinin əvvəlki illərdə yerli və beynəlxalq olimpiadalarda qazandığı nailiyyətlər onun yüksək nəticə əldə edəcəyinə ümid yaratsa da, maksimum nəticəyə nail olmağın heç də asan olmadığını bilirdilər.

"Əli bu uğur üçün çox zəhmət çəkib. Qarşısına məqsəd qoyanda ona çatmaq üçün bütün gücünü ortaya qoyur. Bu nəticə onun ilboyu göstərdiyi səylərin və əzmkarlığının bəhrəsidir. Nəticəni gözləyirdik, amma maksimum bal topladığını eşidəndə yenə də çox həyəcanlandıq və sevindik", – deyə o bildirib.

Valideyn qeyd edib ki, Əlinin qazandığı uğur yalnız ailəsi üçün deyil, onu tanıyan hər kəs üçün qürurvericidir. Bu nəticə məqsədyönlü çalışmağın və zəhmətin insanı uğura apardığını bir daha göstərir.

✍ **Zəhra VƏLİYEVA**

# Bu qələbə mənim üçün zirvənin başlanğıcıdır

Şamaxı Olimpiya Mərkəzində kadetlər arasında keçirilən boks üzrə ölkə birinciliyinin final mərhələsində Naxçıvan idmançısı uğurlu nəticə əldə edib. 57 komandadan 159 dəri əlcək sahibinin qatıldığı respublika birinciliyində bütün rəqiblərinə qalib gələn boksçumuz Sadiq Xəlilov və onun məşqçisi Elnur Kərimli qələbə təəssüratlarını bizimlə bölüşüblər.

Ölkə birinciliyində fəxri kürsünün ən yüksək zirvəsinə qalxan Sadiq Xəlilov final mərhələsi elan olunanda qarşısına yalnız bir məqsəd qoyub, o da Naxçıvana çempion kimi qayıtmaq: "Birincilikdə ölkənin dörd bir yanından gəlmiş 159 boksçu mübarizə aparırdı və rəqabət həddindən artıq güclü idi. Bura gələn boksçuların hər biri zona birinciliklərində adlarını qaliblər sırasına yazdırmışdılar. Keçirdiyim 3 görüşün hər biri mənim üçün önəm daşıyırdı. Rinqə çıxanda üzərimdə böyük bir məsuliyyət var idi, bilirdim ki, doğma yurdumuzda uğurumuz üçün dua edən insanlar var".

"Rəqiblərimin hər üçü də taktiki cəhətdən yaxşı hazırlaşmışdı, xüsusilə final döyüşü olduqca gərgin keçdi. Lakin mən məşqlərdə məşqçim tərəfindən aldığım tapşırıqları soyuqqanlı şəkildə tətbiq etməyə çalışdım. Çətin anlarda qələbəyə olan inamım və əzmim mənə güc verdi. 3 döyüşün hər birində təmiz qələbə qazanaraq birinci yerə layiq görülmək və qızıl medalı qazanmaq sözlə ifadə olunmayacaq hissdir. Kürsüdə dayananda çəkdiyimiz bütün əziyyətlərin bəhrəsini gördüyümü anladım. Bu qələbə mənim üçün böyük zirvənin başlanğıcıdır. İndi hədəfim daha böyükdür. Dayanmadan çalışıb gələcəkdə dünya və Avropa çempionatlarında Azərbaycan Bayrağını dalğalandırmaq istəyirəm".

Baş məşqçi Elnur Kərimlinin sözlərinə görə, yetirməsinin uğuru onun üçün ən gözəl mükafatdır: "Sadiqin bu turnirdə göstərdiyi əzmkarlıq məni çox qürurlandırdı. Biz bura asan yolla gəlməmişdik. İdmançılarımız əvvəlcə zona birinciliyində yüksək nəticə göstərərək final mərhələsinə vəsiqə qazanmışdılar. Naxçıvanda idmançılarımıza göstərilən diqqət və dövlət dəstəyi bizim hazırlıq prosesimizi tam təmin etmişdi. Biz Şamaxıya gedəndə qalib gəlməyi hədəf kimi qarşımıza qoymuşduq".



"Sadiq turnirboyu əsl idmançı intizamı nümayiş etdirdi. Boks həm də analitik təfəkkür, rinqdə rəqibi oxumaq bacarığıdır. O hər üç döyüşdə də soyuqqanlılığını qorudu, rəqiblərin zəif tərəflərini vaxtında görüb dəqiq zərbələrlə xalları öz xeyrinə yazdırmağı bacardı. İnanıram ki, bu qızıl medal muxtar respublikamızda boksla məşğul olan digər yeniyetmələr üçün də çox böyük stimul olacaq. Qətiyyən əldə olunan nəticə ilə kifayətlənməyəcəyik. Qarşıda bizi milli komandanın toplanışları və beynəlxalq arenalarda gözləyən daha ciddi sınaqlar var".

Ölkə birinciliyində qazanılan bu qızıl medal Naxçıvan boks məktəbinin gələcəkdə qazanılacaq böyük uğurlarının, sadəcə, bir xəbərçisidir. İnanırıq ki, gənc boksçumuzun adı tezliklə beynəlxalq arenalarda, dünya və Avropa çempionatlarında da qürurla hallanacaq, üçrəngli bayrağımız ən uca zirvələrdə dalğalanacaqdır.

**"Şərq qapısı"**

## Bildiriş

Naxçıvan Muxtar Respublikasının 10 aprel 2026-cı il tarixli 17-VII QN nömrəli Qanununa əsasən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı ləğv edilmişdir.

Kreditorlar öz tələblərini elan dərc edildiyi gündən 60 gün müddətində aşağıdakı ünvana təqdim edə bilərlər:

Ləğvedici: Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6***
***Əlaqə telefonu: 036-544-00-60***
***E-mail: info@neconomy.gov.az***

***

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Naxçıvan Aqrar İstehsalat, Tədarük və Təchizat" Açıq Səhmdar Cəmiyyəti ləğv edilmişdir. Ləğv prosesi ilə əlaqədar debitor və kreditorlardan öhdəlikləri ilə bağlı müraciət etmələri xahiş olunur.

## İtmişdir

Naxçıvan şəhəri, İstiqlal küçəsi, ev 79, mənzil 42 ünvanında yerləşən evin Əliyeva Hicran İsa qızının adına verilmiş 6145 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Əliyev Rauf Feyzulla oğluna məxsus Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Siyaqut kənd sakini Quliyev Oktay Bağır oğluna məxsus $197^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kərimbəyli kənd sakini Allahverdiyev Yusif Fərəc oğlunun adına olan JN-$45^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qabıllı kəndində yaşamış Babayeva Zeynəb Paşa qızının adına olan JN-$175^A$ nömrəli, 10801028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Salmanov Asif Həsən oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun AO-0054341 seriya nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kəndində Həşimov İlyas Həşim oğlu (ailə üzvləri ilə birlikdə) adına olan JN-$1^A$ və JN-$1^B$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Əliyev Hidayət Qulu oğlunun adına olan qoşqu vasitəsinin sənədləri itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Rəsulov Rövşən Məhərrəm oğlunun adına verilmiş JN-408 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Nursu kəndində İbrahimov Nurəli Heyvəli oğlunun adına verilmiş JN-$042^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərində yaşamış Ağayev Abbas Məhəmməd oğlunun adına Nazim Hikmət küçəsi, $9^A$ ünvanında olan evin 3820 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Oğuz kənd sakini Həsənova Həcər Həsən qızının adına olan $209^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayon sakini Vəliyev Şərbət Gəncəli oğlunun adına müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun AO-1053112 seriya nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Oğuz kəndində yaşamış Həsənova Nubar Həsən qızının adına olan $215^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Püsyan kənd sakini Niftəliyev Bayram Niftəli oğlunun adına verilmiş JN-$579^B$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kosacan kənd sakini Dadaşov Lətif Hüseyn oğlunun adına verilmiş JN-5 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Fərəcova Fatma Kərbəlayı Abdulla qızına məxsus 102013004711 reyestr nömrəli plan-ölçü və hüquqların dövlət qeydiyyatından çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dərəkənd sakini Mirzəyev Şaiq Somar oğluna məxsus JN-$246^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-170 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dərəkənd sakini Mirzəyev Somar Qəhrəman oğluna məxsus JN-$310^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Axaməd kəndində yaşamış Nağıyev Əli Ramazan oğluna məxsus JN-$9^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor:
RƏMZİ TAHİRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 110

Nömrəyə məsul: Rafiq Təhməzov, Elnurə Cəfərova, Zəhra Vəliyeva
Dizayner: Həbibə Allahverdiyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.